**NAĞDSIZ DÖVRİYYƏDƏ ƏSAS VALYUTA MANATDIR**

# DOLLARIN "ŞAH DÖVRÜ" BİTİR?



Hərraclarda təklifin tələbi üstələməsi və dollar alışının minimuma enməsi bazarda davranış dəyişikliklərinə işarə edir.

İsmayıl Məmmədovun fikrincə, dollar funksiyasını dəyişir: "Dolların "şah dövrü"nün başa çatdığı barədə fikirlər daha çox səslənir. Əgər psixoloji sığınacaq funksiyası daşıyan valyuta nəzərdə tutulursa, həqiqətən də həmin mərhələ arxada qalır".

Manat gündəlik iqtisadi dövriyyədə dominant valyutaya çevrilib: "Vergilər, kreditlər, ödənişlər və daxili alqı-satqılar manatladır. Dollar artıq iqtisadiyyatın aktiv dövriyyə vasitəsi deyil, daha çox xarici əməliyyatlarda istifadə olunan alətə çevrilib".

SƏHİFƏ 13-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



21 FEVRAL ŞƏNBƏ 2026 № 07 (4258) Qiyməti - 60 qəpik www.kaspi.az



## ALBANİYADA AZƏRBAYCAN RUHU

Leyla Əliyeva və Arzu Əliyeva Albaniyaya səfər ediblər. Səfər çərçivəsində Leyla Əliyeva Albaniya Prezidenti Bayram Beqay, Baş nazir Edi Rama ilə görüşüb, "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin açılışında iştirak edib.

SƏHİFƏ 3-də



## SEÇİM DEYİL, STRATEJİ ZƏRURƏTDİR

Rəqəmsallaşma məktəbdə kompüter sayının artması ilə məhdudlaşmamalıdır. Düşüncə tərzinin dəyişməsi, tədris metodlarının yenilənməsi və bərabər imkanların təmin olunması kompleks həll edilməlidir.

SƏHİFƏ 12-də



## YANACAQ XƏRCLƏRİ NİYƏ AZALMIR?

Qənaətcil avtomobillərin artmasına baxmayaraq, daşımalar, tıxaclar və köhnə avtopark yanacaq xərclərinin azalmasına imkan vermir. Ekspertlər hesab edirlər ki, mövcud şəraitdə yaxın dövrdə də xərclərin azalması real görünmür.

SƏHİFƏ 11-də

**AZƏRBAYCAN SÜLH ŞURASININ MƏQSƏD VƏ MƏRAMLARINI DƏSTƏKLƏYİR**

# SÜLH ÜÇÜN HƏR FÜRSƏT DƏYƏRLƏNDİRİLİR




Fevralın 19-da Vaşinqtonda Sülh Şurasının ilk iclası keçirilib. Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampın dəvəti ilə iclasda iştirak edib.

### BEYNƏLXALQ NÜFUZUN GÖSTƏRİCİSİ

Bu sammit Azərbaycanın artan beynəlxalq nüfuzunun göstəricisi kimi dəyərləndirilə bilər. Prezident İlham Əliyevin beynəlxalq hüquqa əsaslanan sülh dinamikasının inkişafında qətiyyətli iradəsi dünyanın ən güclü dövlətinin Prezidenti Donald Tramp tərəfindən də etiraf olunur.

### NİKOL PAŞİNYANLA AYAQÜSTÜ SÖHBƏT

Vaşinqton yenidən Azərbaycan və Ermənistan liderlərinin sülh gündəliyi ilə bağlı müzakirə aparmasına şahidlik edib. Prezident İlham Əliyev Ermənistanın Baş naziri Nikol Paşinyanla ayaqüstü söhbət edib. Söhbət zamanı iki ölkə arasındakı sülh prosesinin gedişatı müzakirə olunub.

SƏHİFƏ 2-də

"12 yaşımda həkim olmaq qərarını vermişdim"

## "HƏR GÜN KİMİNSƏ ÜRƏYİNƏ TOXUNMAQ İMKANIM VAR"



Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "Kaspi" qəzeti tərəfindən reallaşdırılan "Məktəbdə..." layihəsinin budəfəki qonağı tanınmış ürək-damar cərrahı, Milli Məclisin deputatı Rəşad Mahmudov oldu. Paytaxtdakı 23 nömrəli tam orta ümumtəhsil məktəbində keçirilən görüşdə qonaq "Həyatın əsas açarı uşaqlıqdan xəyal etmək, gerçəkləşmiş kimi şükür etmək, inanmaq və hər şeyə rəğmən yorulmadan yola davam etməkdir", - deyə vurğuladı. R.Mahmudov qeyd etdi ki, uşaqlıqda qurulan xəyallar insanın gələcək həyat yolunu müəyyənləşdirir.

SƏHİFƏ 7-də



## SİYASİ MANİPULYASİYALARA HÜQUQİ CAVAB

Bəşəri cinayət törədənlərin milliyyətinin heç bir fərqi yoxdur. Əsas olan haqqın zəfər çalmasıdır. Məhkəmədə ortaya qoyulan sübutlar cəzasızlıq anlayışının hansı fəsadlara yol açdığını dünyaya əyani şəkildə göstərmiş oldu.

SƏHİFƏ 4-də



## İLLƏRİN QARŞIDURMASINDA MÜSBƏT SONLUQ

Narazılıq doğuran daşınmaz əmlaka görə kompensasiya tələbi müsbət istiqamətdə həllini tapa bilər. Kompensasiyanın qabaqcadan və ədalətli ödənilməsi prosedurunu tənzimləyən yeni qanun layihəsinin hazırlanması təklif olunur.

SƏHİFƏ 8-də



## ÜRƏYİN SIĞINACAQ TAPDIĞI YER

Portofino elit turizm şəhəridir. Məşhur siyasətçilər, idman ulduzları, şou-biznes, moda simaları hər il buraya axın edirlər. Təsadüfi deyil ki, şəhər Madonna, Corc Kluni, Şeron Stoun və Demi Mur kimi tanınmışların tətil yeridir.

SƏHİFƏ 15-də



Avropa Komissiyasından SOCAR-la bağlı qərar

SƏHİFƏ 10-da



Niger Fransa ilə müharibəyə hazırlaşır

SƏHİFƏ 5-də



Piyadalar daha çox qorunan tərəf olacaq

SƏHİFƏ 9-da



Kiçik flakon, böyük risk

SƏHİFƏ 14-də



Gözlənilməz çöküşün pərdəarxası

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# SÜLH ÜÇÜN HƏR FÜRSƏT DƏYƏRLƏNDİRİLİR

Fevralın 19-da Vaşinqtonda Sülh Şurasının ilk iclası keçirilib. Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampın dəvəti ilə iclasda iştirak edib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Mövcud dünya sistemi hazırda ciddi böhranla üzüzədir. Ənənəvi beynəlxalq təşkilatlar və təsisatlar beynəlxalq ictimaiyyətin üzləşdiyi təhlükəsizlik və humanitar problemləri həll etmək iqtidarında deyillər. Hazırda dünyada 60-dan artıq münaqişə ocağı mövcuddur. Qəzzada baş verən son hadisələr, dörd ildən artıqdır davam edən Rusiya-Ukrayna müharibəsi güc amilinin ön plana çıxdığını, beynəlxalq mexanizmlərin iflasını bir daha təsdiqləyir. Dünyanın ən böyük beynəlxalq təşkilatı olan BMT mövcud çağırışlar fonunda çarəsiz qalıb. Təşkilatın Nizamnaməsində təsbit olunmuş beynəlxalq sülhün qorunması, münaqişələrin dinc yolla həlli və dövlətlərin suveren bərabərliyi prinsipləri ilə bağlı qəbul edilmiş qərarların illərlə kağız üzərində qalması, müxtəlif zaman kəsiyində bəzi dairələr tərəfindən özlərinin maraqlarına uyğun sui-istifadə edilməsi də bir faktdır. Hansı ki, 30 ildən artıq işğal dövrü yaşamış, suverenliyi, ərazi bütövlüyü kobud şəkildə pozulmuş Azərbaycan bunu əyani olaraq görüb və yaşayıb.

### TRAMP İLHAM ƏLİYEVƏ TƏŞƏKKÜR ETDİ

Belə bir reallıq fonunda Donald Tramp Administrasiyası tərəfindən alternativ sülh mexanizmi kimi Sülh Şurası təşəbbüsü irəli sürülüb. Onun ilk iclası Vaşinqtonda keçirilib. Prezident İlham Əliyev də Ağ Ev rəhbərinin dəvəti ilə bu iclasda iştirak edib. Bu sammit bir daha Azərbaycanın artan beynəlxalq nüfuzunun və qlobal sülhə töhfəsinin göstəricisi kimi dəyərləndirilə bilər. Prezident İlham Əliyevin istər bölgəmizdə, istərsə də dünyada beynəlxalq hüquqa əsaslanan sülh dinamikasının inkişafında qətiyyətli iradəsi dünyanın ən güclü dövlətinin Prezidenti Donald Tramp tərəfindən də etiraf olunur.

İclasda çıxışı zamanı Donald Tramp prezidentliyi dövründə səkkiz münaqişəyə son qoyduğunu bildirib.




Onun sözlərinə görə, iki çox vacib ölkə arasında sülh əldə edib və bunu heç vaxt unutmayacaq. ABŞ Prezidenti Azərbaycan və Ermənistan liderlərinə regionda yaranan sülhə görə təşəkkür edərək deyib: "Bilirsiniz, müharibə edəndə onun xərcləri sülhün dəyərindən 100 qat artıq olur. Orada sonda əyləşən cənabı (Prezident İlham Əliyevi - red.) görürük. O gülümsəyir. Otuz il mübarizədən sonra bu, aydın oldu, elə deyilmi? Otuz il müharibə gedib və biz onun öhdəsindən gəldik. Sizə çox minnətdaram, əla iş gördünüz".

### "ETDİKLƏRİNİZ İNANILMAZDIR"

Azərbaycanın ali rəhbərliyinin mövcud kataklizmlər fonunda sülh gündəliyi ilə bağlı yaratdığı model bir çox münaqişələrin həllində nümunə göstərilir. Hərbi qarşıdurmadan dərhal sonra başlayan sülh prosesi çox qısa zaman kəsiyində özünün müsbət nəticələrini verməyə başladı. Azərbaycanın Sülh Şurası çərçivəsində önə çıxmasının əsas səbəblərindən biri də məhz budur.

Trampın ardınca bu reallıq ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vens tərəfindən də etiraf olunub. O, Sülh Şurasının ilk iclasında Cənubi Qafqazda sülhün əldə edilməsi istiqamətindəki səylərinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Ermənistanın Baş naziri Nikol Paşinyana təşəkkür edib. "Etdikləriniz inanılmazdır. Burada toplaşan bütün liderlərə, gələcəyə və sülhə investisiya qoyan hər kəsə minnətdarıq. Azərbaycan Prezidentini və Ermənistanın Baş nazirini xüsusilə qeyd etmək istəyirəm, onlarla keçən həftə görüşmüşdüm. Bunu mümkün etdiyiniz üçün və gerçək liderliyin nəyə nail ola biləcəyini nümayiş etdirdiyiniz üçün sizə təşəkkür edirəm", - Vens qeyd edib.




## İLHAM ƏLİYEV NİKOL PAŞİNYANLA AYAQÜSTÜ SÖHBƏT EDİB






İclasın keçirildiyi Vaşinqton yenidən Azərbaycan və Ermənistan liderlərinin sülh gündəliyi ilə bağlı qısa da olsa müzakirə aparmasına şahidlik edib. Prezident İlham Əliyev fevralın 19-da Ermənistanın Baş naziri Nikol Paşinyanla ayaqüstü söhbət edib. Söhbət zamanı iki ölkə arasındakı sülh prosesinin gedişatı müzakirə olunub.

Bu müzakirə fonunda Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "X" sosial şəbəkəsindəki paylaşımı da diqqət çəkir.

"SÜLH sözünün böyük baş hərflərlə yazıldığı fonda Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri əl sıxır. Təsadüf kimi görünə bilən bu an dərin simvolik məna daşıyır. Azərbaycan Prezidenti İlham Əliyev qurucu üzv dövlət kimi Sülh Şurasının təsis iclasında iştirak edir. Sülh Şurasının Təsisçi Sədri kimi Prezident Donald Tramp bir daha Azərbaycan-Ermənistan sülh gündəliyini vurğuladı", - paylaşımda qeyd olunub.

## AZƏRBAYCAN SÜLH ŞURASININ MƏQSƏD VƏ MƏRAMLARINI DƏSTƏKLƏYİR

Qeyd edək ki, Tramp Sülh Şurasının ilk iclasından sonra yekun qətnaməni imzalayıb. Yekdilliklə qəbul edilən qətnamə Şuranın işinə rəhbərlik edəcək maliyyə bütövlüyü və şəffaflıq prinsiplərini müəyyən edir. Prezident Tramp, sədr kimi, Şuranın kvorumunun iştirakı ilə qətnaməni imzalayıb. "İnanıram ki, bu, karyeramızda bəlkə də ən vacib günlərdən biridir. Biz Qəzzada nizam-intizam yaradacağıq, onu uğurlu, dinc və təhlükəsiz edəcəyik", - Tramp görüşün sonunda deyib.

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev "X" sosial şəbəkəsindəki paylaşımında ölkəmizin bu prosesə bağlı mövqeyini açıqlayıb. Onun sözlərinə görə, Azərbaycan təsisçi üzv dövlət kimi Sülh Şurasının məqsəd və məramlarını dəstəkləyir. Gələcəkdə Azərbaycan tərəfindən Sülh Şurası vasitəsilə Qəzzada sərmayə layihələrində iştirak nəzərdən keçirilə bilər. "Amma bir məsələyə aydınlıq gətirmək istərdik. Belə ki, Sülh Şurasının bugünkü iclasında səsləndirilən 7 milyard ABŞ dolları məbləğində Qəzzaya dair maliyyə layihəsində Azərbaycanın iştirakı nəzərdə tutulmur", - paylaşımda qeyd olunub.

# ALBANİYADA AZƏRBAYCAN RUHU



**Leyla Əliyeva və Arzu Əliyeva Albaniyaya səfər ediblər. Səfər çərçivəsində Leyla Əliyeva Albaniya Prezidenti Bayram Beqay, Baş nazir Edi Rama ilə görüşüb, "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin açılışında iştirak edib.**

F.ABASOĞLU

Azərbaycan dünya dövlətləri ilə tək siyasi-iqtisadi yox, həm də mədəni-humanitar əlaqələrin inkişafına xüsusi önəm verir. Leyla Əliyeva və Arzu Əliyevanın Albaniyaya səfərləri bu baxımdan xüsusi diqqət çəkir.

### ALBANİYA PREZİDENTİ İLƏ GÖRÜŞ

Leyla Əliyeva səfər çərçivəsində Tiranada Albaniya Prezidenti Bayram Beqay ilə görüşüb. Söhbət zamanı Prezident Bayram Beqay Albaniya Baş nazirinin iqamətgahında açılan sərginin iki xalq arasında münasibətlərin inkişafında mühüm mərhələ olduğunu qeyd edib.

Leyla Əliyeva Azərbaycan və Albaniya arasında münasibətlərin təməlinin formal protokollardan kənara çıxdığını vurğulayıb. Görüşdə logistik çətinliklərin aradan qaldırılması mövzusuna toxunulub. Bakı-Tirana birbaşa aviareyslərinin işə salınmasının zəruriliyi vurğulanıb.

Albaniyada ildə 300 günəşli günün olması nəzərə alınaraq, ölkədə ilboyu turizm və ekoturizm konsepsiyalarının inkişafı, həmçinin Albaniya, Monteneqro və Kosovonu birləşdirən ortaq marşrutların yaradılması müzakirə edilib. Bildirilib ki, iqtisadi sahədə, xüsusilə turizm sektorunda Azərbaycan investisiyalarına böyük maraq göstərilir. Qeyd olunub ki, Azərbaycanın Monteneqroda icra etdiyi uğurlu layihələr Albaniya sahillərində nəinki təkrarlanacaq, hətta daha böyük nəticələr verəcək. Söhbət zamanı iki ölkə liderlərinin siyasi iradəsinin konkret addımlarla - viza rejiminin ləğvi və diplomatik təmsilçiliyin gücləndirilməsi ilə təsdiqini tapdığı bildirilib.

## "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin açılışı

Leyla Əliyeva və Arzu Əliyeva Tiranada - Albaniyanın Baş nazirinin İqamətgahında MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin açılışında da iştirak ediblər.

Tədbirdə çıxış edən Leyla Əliyeva ekspozisiyada yer alan rəsmlər, heykəllər və instalyasiyalar vasitəsilə sənətkarların təbiətin gücünü, gözəlliyini və kövrəkliyini nümayiş etdirdiyini vurğulayıb. O, bu sərginin təbiəti qorumaq məqsədilə sənətimizin sərhədləri aşmasının mükəmməl bir nümunəsi olduğunu qeyd edib.

Leyla Əliyeva mənəvi zənginliyi və səmimiyyəti ilə seçilən gözəl ölkədə olmaqdan məmnunluğunu ifadə edərək deyib: "Azərbaycan və Albaniyanı siyasi sərhədləri aşan sıx dostluq və dərin münasibətlər birləşdirir. Ölkələr müasir dünyada böyük ehtiyac duyulan humanizm, xeyirxahlıq, ləyaqət və qarşılıqlı hörmət kimi ali dəyərləri paylaşır". O, həmçinin Baş nazir Edi Ramanın və tanınmış alban rəssamı Arben Qoleminin əsərlərinin bu sərgidə təqdim olunmasının onun üçün böyük şərəf olduğunu, bu gün burada Bakıdan olan dörd rəssamın iştirak etməsindən və onların öz müsbət təcrübələrini



bölüşərək yaradıcılıqları haqqında şəxsən məlumat vermək imkanından böyük məmnunluq duyduğunu qeyd edib.

Leyla Əliyeva bəşəriyyətin təbiətə vurduğu zərərdən də söz açıb: "Hər il dünyada 10 milyon hektar meşə sahəsi məhv edilir. İnsanlıq vəhşi heyvanların 83 faizini, bitkilərin isə yarısını yox edib. Hər il planetimizdən 200 canlı növü silinir və okeanların 66 faizi birbaşa insan fəaliyyətinin mənfi təsirlərinə məruz qalır. Azərbaycanın zəngin ekosistemi də bu proseslərdən kənarda qalmır. Xəzər dənizinin səviyyəsi xeyli aşağı düşüb. Xəzər suitisi, qızılbalıq və nərə balığı kimi heyrətamiz canlı növləri yox olmaq təhlükəsi ilə üzləşib".

### İKİ ÖLKƏNİN DOSTLUĞUNDA YENİ SƏHİFƏ

Albaniyanın Baş naziri Edi Rama sərgidə Leyla Əliyevanın əsərləri də daxil olmaqla, təbiətin mühafizəsi ilə incəsənətin vəhdətini nümayiş etdirən rəsmləri görməkdən şərəf duyduğunu qeyd edib. Baş nazir bu sərginin iki ölkənin dostluğunda yeni bir səhifə açaraq, bura mədəniyyət və yaradıcılıq ruhu gətirdiyini söyləyib. Edi Rama, sərginin davam etdiyi bir ay ərzində hər bir tamaşaçının buradan özü ilə rənglərin və xəyalların bir parçasını aparacağını bildirib.

Leyla Əliyeva səfər çərçivəsində Albaniyanın Baş naziri Edi Rama ilə də görüşüb. Səmimi dostluq və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə Azərbaycan ilə Albaniya arasında əlaqələrin yüksək səviyyədə olduğu bir daha vurğulanıb.

Tərəflər mədəni əlaqələrin möhkəmləndirilməsini müzakirə edərək, incəsənətin birgə yaradıcılıq üçün universal vasitə kimi rolunu qeyd ediblər. Söhbət zamanı Leyla Əliyeva və Edi Rama ekoloji məsələlərə xüsusi diqqət ayıraraq, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizədə səylərin birləşdirilməsinin vacibliyini qeyd ediblər.

## TİRANADA "HANNAH VƏ ROSAFA" UŞAQ EVİNİ ZİYARƏT

Səfər çərçivəsində Leyla Əliyeva Tiranada fəaliyyət göstərən "Hannah və Rosafa" uşaq evini də ziyarət edib. Uşaq evi valideyn himayəsindən məhrum olan və ya sosial təhlükə mühitində yaşayan azyaşlılar üçün nəzərdə tutulmuş dövlət müəssisəsidir.

Qeyd olunub ki, qurumun fəaliyyəti xüsusilə 0-6 yaş arası uşaqların mühafizəsi, tərbiyəsi və onlara hərtərəfli qayğının göstərilməsi istiqamətinə yönəlib. Bildirilib ki, müəssisədə uşaqlar erkən inkişaf dövründə ehtiyac duyduqları psixoloji dəstək, tibbi xidmət və mənəvi qayğı ilə əhatə olunur.

Sonra Leyla Əliyeva "Mother Teresa" Universitet Xəstəxana Mərkəzi ilə tanış olub. Diqqətə çatdırılıb ki, Mərkəz bütün Albaniyada, o cümlədən Tiranada əsas dövlət universitet xəstəxanasıdır. Burada xəstələrə ixtisaslı kadrlar tərəfindən ən qabaqcıl texnologiyalardan istifadə olunmaqla tibbi xidmətlər göstərilir.

Qeyd olunub ki, ölkənin əsas onkoloji xidməti burada cəmlənib. Xəstələrə şüa, kimyaterapiya və mürəkkəb cərrahi müalicə imkanları təqdim edilir. Mərkəzdə hər bir uşağın sağlamlığına həssaslıqla yanaşılır. Onların müalicə prosesi şəfqətli yanaşma və rəngarəng mühitlə dəstəklənir.



# SİYASİ MANİPULYASİYALARA HÜQUQİ CAVAB



Ağır faciələrə yol açan bəşəri cinayət törədənlərin milliyyətinin, dini mənsubiyyətinin heç bir fərqi yoxdur. Əsas olan ədalətin və haqqın zəfər çalmasıdır. Azərbaycan məhkəmələrində ortaya qoyulan sübutlar bir daha cəzasızlıq anlayışının hansı fəsadlara yol açdığını dünyaya əyani şəkildə göstərmiş oldu.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə açıq məhkəmə iclasında yekun məhkəmə qərarı (hökm) elan olunub. Hökmə əsasən, R.Vardanyan qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

Qeyd edək ki, bundan əvvəl işğal dövründə ölkəmizə qarşı müharibə və bəşəri cinayətlər törədən erməni əsilli müttəhimlərin də məhkəmə prosesləri başa çatıb. Onların əksəriyyətinə ömürlük həbs cəzası verilib. Bir ildən artıq müddətdə davam edən məhkəmə prosesləri açıq şəkildə təşkil olunub. İttiham olunanların bütün hüquqları qanunvericiliyə uyğun şəkildə təmin edilib və proses şəffaf bir formada aparılıb. İttihamlar isə şahid ifadələri, etiraflar və videofaktlarla tam sübuta yetirilib.

### İŞĞAL FAKTININ TÖRƏTDİYİ AĞIR FACİƏLƏRİN HÜQUQİ MƏSULİYYƏTİ

Bu gün müəyyən maraqlı dairələr artıq cinayətləri tam sübuta yetirələrək layiqli cəza alan həmin şəxsləri müdafiə etməyə çalışırlar. Lakin hər kəsə aydındır ki, bu hökm siyasi deyil, məhz hüquqi xarakter daşıyır. Ədalət məhkəməsinin hökmü isə birmənalı şəkildə törədilən bəşəri cinayətlərə görə məsuliyyət fonunda verilib. İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə dövlətin qətiyyətini nümayiş etdirdi. Əldə edilən hərbi-siyasi uğur fonunda 30 illik işğal faktının törətdiyi ağır faciələrin hüquqi məsuliyyəti də rəsmi Bakının diqqətindədir. Hələ işğal dövründə Azərbaycanın hüquq-mühafizə orqanları ardıcıl şəkildə bu ağır cinayətlərdə əli olan və birbaşa məsuliyyət daşıyan şəxslərə qarşı cinayət işləri açıb və araşdırmalar apararaq faktları, sübutları toplayıb. Məhkəmə proseslərinin təşkili prosesində irəli sürülən ittihamların tam olaraq sübuta yetirilməsi əslində hüquqi məsuliyyət amilinin də Azərbaycanın ali rəhbərliyi və dövlət üçün nə dərəcədə müstəsna əhəmiyyət daşıdığını ortaya qoydu.

## “Bu insanlar bəşəriyyətə qarşı ağır cinayətlər törədiblər”

Prezident İlham Əliyevin “France 24” telekanalına müsahibəsi zamanı bu məsələnin qabardılması özlüyündə bəzi dairələrin Azərbaycanın nəbzini yoxlamaq istəyi kimi dəyərləndirilə bilər. Hökmlərin qüvvəyə minməsindən çox az bir müddət keçməsinə baxmayaraq, bəşəri cinayət törədənlərin əfv məsələsinin gündəmə gətirilməsi, bu arqumentin sülh gündəliyi ilə əlaqələndirilməsi əslində ölkəmizə qarşı planlaşdırılmış təxribatın üstünü örtmək cəhdindən başqa bir şey deyil. Lakin məsələyə Azərbaycan Prezidenti İlham Əliyevin mövqeyi qəti və birmənalıdır: “Onlar bizim ərazimizdə, Ermənistan da daxil olmaqla bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınan suveren



Azərbaycan dövlətinin ərazisində qanunsuz fəaliyyət göstərən separatçı rejimin liderləridir. Bu insanlar uzun illər ərzində azərbaycanlılara və Azərbaycana qarşı törədilən bütün müharibə cinayətlərinin təşkilatçıları olublar və məsuliyyətə cəlb ediliblər. Onlar bizim həyata keçirdiyimiz hərbi əməliyyat nəticəsində Qarabağda saxlanılıb məsuliyyətə cəlb olunublar. Onlar vəkillərlə təmin ediliblər. Məhkəmə prosesi tamamilə şəffaf keçib. Onların cinayətləri şahid ifadələri, çoxsaylı ifadələrlə sübuta yetirilib, hər hansı qanun pozuntusundan söhbət gedə bilməz. Bu insanlar bəşəriyyətə qarşı ağır cinayətlər törədiblər. İkinci Dünya müharibəsindən sonra Nürnberq məhkəmələrində ölüm hökmünə məhkum edilmiş bütün o nasist liderlərini təsəvvürünüzə gətirin ki, iki aydan sonra kimsə gəlib deyəcək, xahiş edirəm, onları azad edin”. Dövlət başçısı bildirib ki, bu şəxslərin törətdiyi cinayət İkinci Dünya müharibəsi zamanı nasistlərin etdiklərindən daha pis idi.

## Cinayət cəzasız qalmır və qalmamalıdır

Məhkəmə hökmlərindən də göründüyü kimi, bu cinayətlərin hamısı Azərbaycan dövlətinin beynəlxalq birlik tərəfindən birmənalı olaraq tanı nan suveren ərazilərində törədilib. Bu səbəbdən Azərbaycan Respublikasının ərazisində cinayət törətmiş şəxslərin mühakimə olunması və cəzalandırılması dövlətin suveren hüququdur. Bu prosesə hər hansı formada müdaxilə cəhdi isə Azərbaycanın daxili işlərinə və suveren səlahiyyətlərinə müdaxilə kimi qiymətləndirilə bilər. Ölkəmizin daxili işlərinə qarışmaq cəhdinin isə hansı nəticələr doğurduğu hər kəsə məlumdur. Bu məsələdə dövlətimizin, ali rəhbərliyin siyasi iradəsi və mövqeyi qətidir.

Prezident İlham Əliyevin məhkəmə tərəfindən layiq olduqları cəzaları alaraq məhkum olunmuş separatçıların əməllərinin Nürnberq prosesində mühakimə edilmiş nasist cinayətkarlarının əməlləri ilə müqayisə etməsi də xüsusi siyasi və hüquqi mesaj kim dəyərləndirilə bilər. Bu müqayisə törədilmiş cinayətlərin ağırlığını ortaya qoymaqla yanaşı, Azərbaycan dövləti üçün suveren ərazilərdə törədilən dəhşətli cinayətlərin cəzasızlığının yolverilməzliyi prinsipini də ortaya qoyur.

Bəli, bəşəri, ağır faciələrə yol açan cinayətləri törədənlərin milliyyəti, dini mənsubiyyətinin heç bir fərqi yoxdur. Əsas olan ədalətin və haqqın zəfər çalmasıdır. Azərbaycan məhkəmələrində ortaya qoyulan faktlar və sübutlar bir daha dünyaya cəzasızlıq anlayışının hansı fəsadlara yol açdığını əyani şəkildə göstərmiş oldu.

# NİGER FRANSA İLƏ MÜHARİBƏYƏ HAZIRLAŞIR




Fransanın keçmiş müstəmləkəsi Nigerlə münasibətləri müharibə həddinə çatıb. Nigerin nüfuzlu hərbçisi, general Amadu İbro Parisi ölkəsində sabitliyi pozmağa cəhd göstərməkdə ittiham edib. O, əhalini Fransa ilə müharibəyə hazır olmağa çağırıb.



AZƏR NURİYEV

Afrika qlobal oyunçular arasında səssiz müharibə meydanına çevrilir. Fransanın keçmiş müstəmləkələri, xüsusilə Nigerlə münasibətləri müharibə həddinə çatıb. Ölkənin ən nüfuzlu hərbçilərindən biri, general Amadu İbro Parisi Nigerdə sabitliyi pozmağa cəhd göstərməkdə ittiham edib və əhalini Fransa ilə müharibəyə hazırlaşmağa çağırıb. Afrika ölkəsinin generalları milli təhlükəsizliyə qarşı təhdidi neytrallaşdırmaq üçün Fransa ilə müharibəyə hazır olduqlarını bəyan ediblər.

### "BİLİN Kİ, BİZ FRANSA İLƏ MÜHARİBƏ EDƏCƏYİK"

Fransız dilində söylədiyi və alqışlarla qarşılanan çıxışında İbro vurğulayıb ki, əvvəlki diplomatik sürtünmələrdən fərqli olaraq, bu gün vəziyyət hərbi-siyasi müstəviyə keçib. Onun çıxışının ən rezonans doğuran hissəsi belədir: "Bilin ki, biz Fransa ilə müharibə edəcəyik. Əgər əvvəllər açıq münaqişə vəziyyətində deyildiksə, indi ona qədəm qoyuruq. Səfərbərlik sadəcə hazırlıq deyil, dövlətimizə yönəlmiş müstəmləkə müdaxiləsinə qarşı müdafiə tədbiridir".

2026-cı il yanvarın sonunda ekstremistlərin Niamey beynəlxalq hava limanına hücumundan sonra general Tçiani Fransa Prezidenti Emmanuel Makrona qarşı tənqidlə çıxış etdi. Tçianinin sözlərinə görə, Paris öz regional peykləri olan Benin və Kot-d'İvuar vasitəsilə terror qruplaşmalarına logistik və maliyyə dəstəyi təmin edərək Nigerdə vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirir. O bildirib ki, Fransa ölkənin uran ehtiyatlarını ələ keçirmək üçün təhdid və şantaj yolu seçib: "Paris Niger hakimiyyətini uran ixrac edərsə, karvanlara hücum etmək üçün muzdlulardan istifadə etməklə hədələyib". General əlavə edib ki, Makron ölkənin suverenliyini qorumaq üçün atdığı cəsarətli addımlara görə Niger hökumətini devirməyə hazırdır. Yanvarda Niamey hava limanına edilən hücum və Niger çayının sağ sahilindən muzdlulara pul, silah və avadanlıq verilməsi Parisin Nigerdə sabitliyi pozmaq səylərinin bir hissəsidir. Niger iddia edir ki, bu hücumun təfərrüatları ötən il iyulun 15-də Cəblədə fransız agentlərinin iştirakı ilə keçirilən gizli görüşdə müzakirə olunub.



Emmanuel Makron

### NİGER İSTEHSAL ETDİYİ URANI SATA BİLMİR

"Financial Times" qəzetinin məlumatına görə, Niger hökuməti paytaxt Niamey hava limanı ərazisində saxlanılan uranın satışı ilə bağlı Rusiya, Çin və ABŞ ilə müzakirələr aparır. Mədənlərdən hava limanına təxminən 240 milyon dollar dəyərində 1000 ton uran çatdırılıb.

2023-cü il hərbi çevrilişindən əvvəl Niger Avropa nüvə elektrik stansiyalarının ehtiyac duyduğu uranın dörddə birinə qədərini ölkə ərazisində fəaliyyət göstərən Fransaya məxsus "Orano" şirkəti vasitəsilə təmin edirdi. Daha sonra nüvə yanacağı istehsalçısının aktivləri milliləşdirilib. Bundan sonra "Orano" potensial uran satışının qarşısını almaq üçün məhkəmə prosesi başladıb. Adı çəkilməyən bir fransız diplomatı nəşrə bildirib ki, Paris Niger hakimiyyətini uranı satmaqdan və ya daşımaqdan çəkinməyə çağırıb.

Nigerdə Fransanı iqtisadiyyatı sarsıtmaq və suveren dövlətin təbii ehtiyatları üzərində nəzarəti qanunsuz saxlamaq cəhdlərində ittiham edirlər. Müqavimətində Niger tək deyil. Mali və Burkina-Fasonun da daxil olduğu Sahel Dövlətləri Alyansı (AES) fransız təsirinin tamamilə zərərsizləşdirilməsini qarşısına məqsəd qoyub.



Amadu İbro

## FRANSA MÜXALİFƏTİ DƏSTƏKLƏMƏKLƏ MƏQSƏDİNƏ ÇATMAQ İSTƏYİR

Fransa Nigerdə hakimiyyəti dəstəklədiyi yerli qrupların əli ilə sarsıda bilər. Qərbyönümlü ekspert Sergey Fyodorov da Parisi xüsusi xidmətlər vasitəsilə Niger müxalifətini dəstəkləməkdə ittiham edib. "Əvvəllər Nigerdə Fransa təsiri var idi, orada onların hərbi bazası yerləşirdi. Bir neçə il əvvəl Parisdən ölkədən çıxmağı xahiş etdilər. Bu, fransızların xoşuna gəlmədi. Nigerin Fransaya müharibə elan etməsi bəyanatı nə deməkdir? Paris, ola bilsin ki, bu Afrika ölkəsində bu və ya digər qrupları dəstəkləyərək siyasi vəziyyəti özü üçün uyğunlaşdırmağa çalışır. Ola bilsin, bundan sonra Niger hakimiyyəti müharibə haqqında danışmağa başlayıb. Amma Fransanın Nigerlə ümumi sərhədləri olmadığından onların necə döyüşəcəklər, tam aydın deyil. Mənim fikrimcə, bu bəyanat onun elanıdır ki, Nigerin indiki hakimiyyəti Fransanın yerli müxalifətə yardımını qəzəblə qarşılayıb. Müxalifət qüvvələri indi Nigerdə hakimiyyəti ələ keçirməyə və ya hansısa fəaliyyətlərə başlamağa çalışırlar", - deyə Fyodorov bildirib. O əlavə edib ki, Fransa hakimiyyəti öz hərbi kontingentini Afrikaya göndərməyəcək. Fransa əvvəllər Saheldə hərbi əməliyyatlarda uğursuzluğa düçar olublar və regiondan ciddi nüfuz itkisi ilə çıxıblar.

"Çətin ki, Paris indi Nigerdə təkbaşına genişmiqyaslı hərbi əməliyyata qərar versin", - Fyodorov fikrini yekunlaşdırıb.

### HƏRBİ, SİYASİ VƏ HUMANİTAR SİYASƏTİN İFLAS GÖSTƏRİCİSİ

Xatırladaq ki, Niger 1898-ci ildən etibarən Fransa tərəfindən işğal olunub, daha sonra isə Fransız Qərbi Afrikasının tərkibində müstəmləkə kimi idarə edilib. 1960-cı ildə rəsmən müstəqillik əldə olunsa da, ölkə uzun müddət Fransa ilə sıx siyasi, iqtisadi və hərbi əlaqələrdə olub. Bu münasibətlər xüsusilə Nigerin zəngin uran ehtiyatları fonunda daha da strateji xarakter alıb. Uran Fransanın atom elektrik stansiyaları üçün əsas xammallardan biri olduğuna görə Niger Paris üçün mühüm tərəfdaş sayılıb. İndi Nigerdə baş verənlər Yelisey sarayının bölgədə apardığı hərbi, siyasi və humanitar siyasətin iflasının göstəricisi kimi qəbul edilir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# ŞƏFFAFLIQ, RİSKLƏR VƏ GİZLİ MÜBARİZƏ

“Epşteyn işi” ABŞ-nin daxili siyasətində güc balansına, partiyadaxili münasibətlərə və elektorat davranışına birbaşa təsir göstərən həssas siyasi alətə çevrilib. Sənədlərin mərhələli və qismən açıqlanması isə “nə gizlədilir?” sualını daha da aktuallaşdırır.

SEVİNC GÜLMƏMMƏDOVA

Cefri Epşteyn işi artıq təkcə cinayət xronikası deyil. “Epstein files” adı altında gündəmə gətirilən sənədlər paketi ABŞ-nin daxili siyasətində güc balansına, partiyadaxili münasibətlərə və elektorat davranışına birbaşa təsir göstərən həssas siyasi alətə çevrilib. Xüsusilə də sənədlərin açıqlanması prosesinin 2025–2026-cı illərdə sürətlənməsi bu mövzunu hüquqi çərçivədən çıxarıb siyasi mübarizə müstəvisinə gətirib.



### ABŞ DAXİLİ SİYASƏTİNƏ TƏSİR

“Epşteyn işi” ABŞ-də uzun illərdir mövcud olan elitaya inamsızlığı daha da dərinləşdirir. Federal institutlar – Ədliyyə Nazirliyi, FTB və Konqres – cəmiyyətin gözündə artıq təkcə hüquqi strukturlar kimi deyil, həm də məlumatı idarə edən siyasi aktorlar kimi görünür. Sənədlərin mərhələli və qismən açıqlanması isə “nə gizlədilir?” sualını daha da aktuallaşdırır.

Bu proses ABŞ siyasətində yeni bir presedent yaradır: cinayət materialları hüquqi nəticədən çox siyasi rıçaq funksiyası daşımağa başlayır. Nəticədə “Epşteyn sənədləri” demokrat-respublikaçı qarşıdurmasında arqument bazasına çevrilir.

### TRAMP ÜÇÜN RİSK, YOXSA FÜRSƏT?

ABŞ Prezidenti Donald Tramp üçün “Epşteyn sənədləri” ikili xarakter daşıyır. Bir tərəfdən onun adının sənədlərdə keçməsi siyasi risk yaradır. İctimai rəy üçün “adın çəkilməsi” hüquqi məsuliyyət olmasa belə, reputasiya baxımından həssasdır. Digər tərəfdən isə Tramp bu mövzunu “dərin dövlət” və “elit korrupsiya” narrativini gücləndirmək üçün istifadə edə bilir.

Tramp tərəfdarları üçün əsas arqument budur: sənədlər açıqlanırsa, deməli, sistem ifşa olunur. Bu isə Trampın “mən sistemi dağıdan liderəm” imicinə xidmət edir. Beləliklə, “Epştein files” Tramp üçün eyni anda həm risk zonası, həm də mobilizasiya fürsəti yaradır.

## RESPUBLİKAÇILAR DAXİLİNDƏ PARÇALANMA

Respublikaçılar daxilində “Epşteyn məsələsi” açıq şəkildə fikir ayrılığı yaradıb. Bir qrup respublikaçı sənədlərin tam açıqlanmasını tələb edərək seçici qarşısında “şəffaflıq tərəfdarı” kimi çıxış edir. Digər qrup isə prosesin təhlükəli presedent yaradacağını, aktiv istintaqa və milli təhlükəsizliyə zərər verə biləcəyini iddia edir.

Bu parçalanma klassik ideoloji yox, taktiki və siyasi qorxu üzərində qurulub: kiminsə adı sənədlərdə çıxarsa, bu, partiya daxilində domino effekti yarana bilər. Bu səbəbdən Epşteyn sənədləri respublikaçılar üçün daxili risk xəritəsini yenidən cızır.



### MAGA ELEKTORATI VƏ MOBİLİZASİYA

MAGA elektoratı üçün “Epşteyn sənədləri” demək olar ki, simvolik məna daşıyır. Bu sənədlər onların illərdir inandığı “elitlər gizlənir”, “ədalət yalnız seçilmişlər üçündür” tezisini möhkəmləndirir. Sənədlərin hər yeni açıqlanması MAGA platformalarında informasiyadan çox emosional çağırış rolunu oynayır. Burada əsas məsələ faktların özü deyil, onların təqdim olunma formasıdır.

### “ŞƏFFAFLIQ” VƏ SELEKTİV İFŞA RİSKİ

Ən ciddi sual isə budur: bu proses doğrudanmı tam şəffafdır, yoxsa selektiv ifşa mexanizmidir? Qanunvericiliyə görə, qurbanları tanıdan, aktiv istintaqa zərər verən materiallar açıqlanmaya bilər. Bu isə hüquqi baxımdan əsaslı olsa da, siyasi baxımdan manipulyasiya riski yaradır.




Hansı adların açıqlanacağı, hansının gizli saxlanacağı artıq hüquqi yox, siyasi qərar kimi qəbul edilir. Bu da həmin sənədləri obyektiv ədalət alətindən çox, güc balansını tənzimləyən mexanizmə çevirir.

Beləliklə, “Epşteyn sənədləri” ABŞ siyasətində sadəcə keçmiş cinayət dosyesi deyil, indiki və gələcək siyasi mübarizənin aktiv komponentidir. Bu sənədlər seçkilərə, partiyadaxili münasibətlərə və ictimai etimada təsir göstərir. Əsas risk isə ondadır ki, hüquqi ədalət siyasi məqsədlərin kölgəsində qalır.

Şəffaflıq iddiası nə qədər güclü olsa da, “Epşteyn sənədləri” ətrafında gedən proses bir həqiqəti açıq göstərir: ABŞ-də informasiya artıq yalnız fakt deyil, siyasi silahdır.

## SƏNƏDLƏR AVROPADA DA SİYASİ TƏLATÜMLƏRƏ YOL AÇIR

Bu məsələ ilə bağlı ən maraqlı cəhətlərdən biri də, “Epşteyn işi”nin ABŞ-dən kənarda da siyasi təlatümlərə yol açmasıdır. Xüsusilə Avropanın siyasi həyatında yaşanan son hadisələr cinayət işinin hüquqi yox, daha çox siyasi məqsədlərə xidmət etdiyinə dair iddiaları gücləndirir. ABŞ-nin yaxın müttəfiqlərinin siyasi həyatında “Epşteyn işi” ilə bağlı təlatümlər yaşanır. İstər hökumət başçıları, istərsə də ictimaiyyət arasında ciddi nüfuzu olan kral ailələrinin üzvləri, nazirlərin adlarının bu məsələdə hallanması istefalar və ciddi qınaqlarla müşahidə olunur. Bu səbəbdəndir ki, “Epşteyn işi”nin daha geniş müstəvidə və detallı olaraq araşdırılması, faktların tam olaraq açıqlanmasında tək ABŞ cəmiyyəti yox, həm də Avropa və bu işdə adı hallanan rəsmi şəxslərin aid olduqları dövlətlərin seçiciləri də ciddi şəkildə maraqlıdırlar.

Prosesin axarının hansı məcraya yönələcəyi isə, təbii ki, ABŞ sistemindəki maraqlı tərəflərin verəcəkləri qərarlardan asılıdır.

“O MƏKTUB BU PEŞƏYƏ BAĞLANMAĞIM ÜÇÜN ƏN BÖYÜK MOTİVASİYA OLDU”

# “HƏR GÜN KİMİNSƏ ÜRƏYİNƏ TOXUNMAQ İMKANIM VAR”

Ürək-damar cərrahı, Milli Məclisin deputatı Rəşad Mahmudov: “Təəssüf ki, yay tətilinə gələndə atam artıq həyatda yox idi. İndi hər bir insanı əməliyyat və ya müalicə edib həyata qaytaranda içimdə sanki atamı sağaldırmışam kimi hesabat verirəm”.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və “Kaspi” qəzeti tərəfindən reallaşdırılan “Məktəbdə...” layihəsinin budəfəki qonağı tanınmış ürək-damar cərrahı, Milli Məclisin deputatı Rəşad Mahmudov oldu. Paytaxtdakı 23 nömrəli tam orta ümumtəhsil məktəbində keçirilən görüşdə qonaq “Həyatın əsas açarı uşaqlıqdan xəyal etmək, gerçəkləşmiş kimi şükür etmək, inanmaq və hər şeyə rəğmən yorulmadan yola davam etməkdir”, - deyə vurğuladı.

### “12 YAŞIMDA HƏKİM OLMAQ QƏRARINI VERMİŞDİM”

R.Mahmudov qeyd etdi ki, uşaqlıqda qurulan xəyallar insanın gələcək həyat yolunu müəyyənləşdirir: “Mən ürək-damar cərrahıyam. Hər gün kiminsə ürəyinə toxunmaq imkanım var. Həkim olmaqla bərabər aliməm. Tibb Universitetində rezidenturada dərs deyirəm. Həm də millət vəkiliyəm. Qanun layihələrinin hazırlanması, müzakirəsi və qəbulunda iştirak edirəm, dövlətin qanunvericilik siyasətində rol oynayıram”.

Millət vəkili uşaqlara zaman-zaman həyata keçən uşaqlıq xəyalları ilə bağlı hekayəsini də anlatdı: “Hələ məktəbdə oxuyarkən - 12 yaşımda həkim olmaq qərarını vermişdim. Davamlı xəyallar qururdum. Ona görə də uğur qazandım. Biz məktəbi qurtaranda - 90-91-ci illərdə ölkənin ən çətin zamanı idi. Azərbaycan yenicə müstəqilliyini bərpa etmişdi, müharibə başlamışdı. Ölkədə işıq, qaz yox idi. Bu günlə müqayisədə həmin dövrdə xəyal qurmaq da çətin idi. Hətta hərdən “niyə mən başqa ölkədə yox, bu ölkədə doğuldum” deyə şikayətlənirdim. Amma məktəbdə yaxşı oxumağa çalışırdım”.

### “ƏGƏR İNSANLAR ÜRƏKLƏRİNİ MƏNƏ ETİBAR EDİRLƏRSƏ...”

Millət vəkili vurğuladı ki, o vaxt Türkiyəyə təhsil almaq üçün göndərilən 50 tələbənin arasına düşmək, həkim olacaq beş gəncdən biri olmaq fürsəti qazanıb: “Türkiyədə oxumağa başlayanda sevincimin həddi-hüdudu yox idi. Ölkəmizdə müharibə gedirdi və bizi xaricdə oxumağımıza görə qınayanlar da vardı. Biz bir gün müharibəyə getmək istəyimizlə bağlı rektorluğa müraciət etdik. “Əgər bu dövlətin tələbi deyilsə, demək siz burada lazımsınız. Oxuyub həkim kimi ölkənizə lazım olacaqsınız”, - deyə cavab verildi. Universiteti bitirdik, vətənə qayıtdıq. Təhsil aldığımız üçün hərbi xidmətə gedə bilməmişdik. Qayıdandan sonra bu xidməti işimizlə ödəməyə çalışdıq. 2005-ci ildə həkim kimi fəaliyyətə başlayanda Heydər Əliyev Fondunun dəstəyi ilə iki min uşağın pulsuz əməliyyat olunmasına dəstək verdik. Naxçıvana, Qazaxa, Gəncəyə gedərək, bu cür əməliyyatların həyata keçirilməsində iştirak etdik. Müharibədə yaralanan hərbçilərin müalicəsinə yardım göstərdik. Hərbi xidmətimizin əvəzini qismən də olsa bu yolla yerinə yetirdik. İndi düşünürəm ki, əgər bu gün insanlar ürəklərini mənə etibar edirlərsə, demək düzgün xəyallar qurmuşam. Əgər Milli Məclisdə hansısa qanunların qəbul olunmasında əməyim keçirsə, demək xəyallarımda yanılmamışam”.

### “BU, ONUN MƏNƏ YAZDIĞI SON MƏKTUB OLDU”

R.Mahmudov mükəmməl ürək-damar cərrahı olmaq üçün çəkdiyi zəhmətdən də söz açdı: “Türkiyədə uzmanlıq imtahanında iştirak etdim. Professorun əlinə baxıb düşünürdüm: “Mən öz professorumdan da yaxşı həkim olacağam. Azərbaycanda ürək cərrahiyyəsi yoxdur. Elə edəcəyəm ki, heç kim ürəkdən ölməsin”. Türkiyədə oxuyanda atamı ürək xəstəliyindən itirdim. 1998-ci ildə dünyaşöhrətli ürək cərrahı Maykl Debeykinin Bakıya gəlişi və Ulu Öndər Heydər Əliyevlə görüşməsi ilə bağlı televiziyada reportaj yayımlandı. Görüşdə gələcəkdə ölkədə böyük ürək mərkəzinin açılacağı bildirildi. Atam həmin gün gecə ilə mənə məktub yazıb göndərmişdi. Təəssüf ki, bu, onun mənə yazdığı son məktub oldu”.

*“Yaxşı həkim, müəllim, mühəndis olmağı arzulayırıq. Müxtəlif xəyallar qururuq. Siz də, məsələn, bu gün kosmosa çıxmaq üçün xəyallar qurmalısınız. İnsan xəyalını düzgün quranda, hədəflərini daha asan müəyyənləşdirə bilir.”*



Fotolar: Tapdıq Abdullayev/Global Photostock

## “Xəstələrimizin böyük bir hissəsi sağlığına qovuşur”

R.Mahmudov qeyd etdi ki, atasının da ürək-damar xəstəliyi olduğunu düşünürdülər: “Amma ciddi şikayəti yox ikən qəfil vəfat etməsi bizim üçün çox gözlənilməz alındı. O məktub mənim bu peşəyə bağlanmağım üçün ən böyük motivasiya oldu. Təəssüf ki, yay tətilinə gələndə atam artıq həyatda yox idi. İndi hər bir insanı əməliyyat və ya müalicə edib həyata qaytaranda içimdə sanki atamı sağaldırmışam kimi hesabat verirəm. Şükürlər olsun ki, müalicə etdiyimiz xəstələrin böyük bir hissəsi sağlığına qovuşur. Bu da tibbin bugünkü inkişafı və bizə verdiyi imkanlarla mümkün olur. Seçdiyim peşədən - həkimlikdən razı qaldım. Yəqin ki, həkimlik də məndən razı qaldı. Hər bir sənətin öz dəyərləri var. Yetər ki, sənətini ürəkdən sevəsən və zəhmət çəkəsən. Bir insan sənətini həyatının ayrılmaz parçası hesab edirsə, işləyərkən özünü rahat hiss edir”.

### “BU GÜN KOSMOSA ÇIXMAQ ÜÇÜN XƏYALLAR QURMALISINIZ”

R.Mahmudov şagirdlərə “dərin düşünən insan həmişə fərqli olur”, “ən böyük sərmayəniz diqqətinizdir”, “telefon sizi idarə etməsin”, “böyük olmaq üçün böyük düşünmək lazım deyil, böyük iş görmək lazımdır” kimi tövsiyələrini də verdi: “Bir şeyə ürəkdən kilidlənmək lazımdır. Hər birimizin bir arzusu olur: tez böyümək, imkan sahibi olmaq, valideynlərimizə, qohum-qonşuya, ölkəmizə kömək etmək istəyirik. Yaxşı həkim, müəllim, mühəndis olmağı arzulayırıq. Müxtəlif xəyallar qururuq. Siz də, məsələn, bu gün kosmosa çıxmaq üçün xəyallar qurmalısınız. İnsan xəyalını düzgün quranda, hədəflərini daha asan müəyyənləşdirə bilir. Xəyallarınızı düzgün qursanız, nəinki özünüzü xoşbəxt edə, ümumilikdə ölkənizə də böyük xeyir verə bilərsiniz”.

# İLLƏRİN QARŞIDURMASINDA MÜSBƏT SONLUQ

SEVİNC ABBASOVA

Narazılıq doğuran daşınmaz əmlaka görə kompensasiya tələbi müsbət istiqamətdə həllini tapa bilər. Kompensasiyanın qabaqcadan və ədalətli ödənilməsi prosedurunu tənzimləyən yeni qanun layihəsinin hazırlanması təklif olunur.

Azərbaycanda daşınmaz əmlakla bağlı kompensasiyanın qabaqcadan və ədalətli ödənilməsi prosedurunu tənzimləyən yeni qanun layihəsinin hazırlanması təklif olunur. Bu təşəbbüslə Milli Məclisin deputatı Nurlan Həsənov parlamentin plenar iclasında çıxış edib və mövcud hüquqi mexanizmlərin təkmilləşdirilməsinin vacibliyini önə çəkib. Onun sözlərinə görə, daşınmaz əmlakın dövlət və ictimai ehtiyaclar üçün əldə edilməsi, həmçinin bu barədə qərar qəbul etmək səlahiyyətinə malik orqanların fəaliyyəti, kompensasiyanın qabaqcadan və ədalətli ödənilməsi proseduru, forması, meyarları kompleks şəkildə yeni qanunla müəyyənləşdirilməlidir.

Ekspertlər hesab edirlər ki, belə bir qanunun qəbul olunması bir neçə istiqamətdə müsbət nəticə verə bilər. İlk növbədə, kompensasiyanın "qabaqcadan ödənilməsi" prinsipi real mexanizmə çevrilərsə, vətəndaşlar köçürülmə prosesində maddi sıxıntı yaşamazlar. İkincisi, qiymətləndirmə meyarları qanunla konkret müəyyənləşdirilərsə, kompensasiya bazar dəyərinə daha uyğun hesablanar və mübahisələrin sayı azalır. Üçüncüsü, qərar qəbul edən dövlət qurumlarının səlahiyyətləri və məsuliyyəti qanunla dəqiqləşdirilərsə, bu sahədə sui-istifadə riskləri minimuma enər.

### BEYNƏLXALQ TƏCRÜBƏ NƏ DEYİR?

Hazırda əksər ölkələrdə mülkiyyətdə olan əmlakın dövlət və ictimai ehtiyaclar üçün alınması qaydaları ayrıca normativ-hüquqi aktlarla tənzimlənir. Məsələn, Almaniyada dövlət ehtiyacları üçün əmlakın alınması yalnız ictimai marağın aydın sübutu olduğu halda mümkündür və mülkiyyətçiyə ödənilən kompensasiya bazar qiymətinə uyğun hesablanmalıdır. Prosesin hər mərhələsi hüquqi əsaslandırma tələb edir və vətəndaşın etiraz etmək hüququ geniş təmin olunur. Bu ölkədə kompensasiya yalnız torpaq və tikili dəyəri ilə məhdudlaşmır, bəzən köçürülmə xərcləri və iqtisadi itkilər də nəzərə alınır.

Türkiyə təcrübəsində də bu proses ayrıca qanunla tənzimlənir. Bu qanun dövlətin əmlakı hansı şərtlərlə ala biləcəyini, qiymətləndirmənin necə aparılacağını, məhkəmə prosedurlarını və kompensasiya ödənişinin mexanizmini konkret şəkildə müəyyən edir. Türkiyədə dövlət ehtiyacları üçün əmlakın alınması zamanı vətəndaşa ödənişin gecikdirilməsi ciddi hüquqi məsuliyyət doğurur.

ABŞ təcrübəsində dövlətin ictimai məqsədlər üçün əmlakı alması mümkündür, lakin Konstitusiyanın tələbi olaraq "ədalətli kompensasiya" ödənilməlidir. Ədalətli kompensasiya bazar dəyəri prinsipi ilə müəyyən edilir və vətəndaşın məhkəməyə müraciət etməsi geniş yayılmış praktikadır.



## Qiymətləndirmədə daha geniş yanaşma təcrübəsi

İqtisadçı-ekspert Rəşad Həsənov hesab edir ki, Azərbaycanda dövlət ehtiyacları üçün daşınmaz əmlakın alınması və kompensasiya mexanizmləri əsasən maddi aspektlər üzərindən qiymətləndirilir. Onun fikrincə, proses çox zaman sadələşdirilmiş yanaşma ilə aparılır və vətəndaşın yaşayış mühiti, sosial bağları, həyat tərzi kimi amillər nəzərə alınmır. Onun qənaətincə, qanunvericilik bazası yaradılarsa, kompensasiya mexanizmi bazar qiyməti prinsipi əsasında daha dəqiq formalaşdırılmalı, eyni zamanda yalnız maddi deyil, qeyri-maddi itkilərin də qiymətləndirilməsi hüquqi prosedura daxil edilməlidir: "Qanunda "layiqli köçürülmə" anlayışı təsbit olunarsa, bu həm daha ədalətli yanaşma olar, həm də vətəndaşların konstitusion hüquqlarının qorunması baxımından daha düzgün hüquqi mövqe formalaşdırar".

Əmlak məsələləri üzrə ekspert, hüquqşünas Ramil Osmanlı isə deyir ki, bu istiqamətdə mövcud qanunvericilik və normativ-hüquqi aktlarda kifayət qədər aydın mexanizmlər nəzərdə tutulub və həmin qaydalara tam şəkildə əməl olunacağı təqdirdə daşınmaz əmlakın alınması və kompensasiya məsələlərinin obyektiv həllində ciddi problem yaranmır. Onun sözlərinə görə, əsas çətinlik qanunvericilik bazasının zəifliyində deyil, mövcud tələblərin icrasında ortaya çıxır.



Rəşad Həsənov

Ramil Osmanlı

## Əsas problem işin icrası mərhələsində ortaya çıxır

R. Osmanlı bu sahədə ideal prosedurun necə işləməli olduğunu da izah edir. O bildirir ki, məsələn, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi müəyyən ərazidə köçürülmə və söküntü aparmaq qərarı verdikdə, həmin ərazi əvvəlcə paytaxtın Baş Planına uyğun şəkildə zonalaşdırılır, sökülələcək binalar və köçürüləcək əmlaklar əvvəlcədən dəqiq müəyyənləşdirilir. Daha sonra söküntü və kompensasiya prosesinin həyata keçirilməsi üçün dövlət satınalmaları mexanizmi vasitəsilə peşəkar qiymətləndiricilər cəlb olunur. Həmin qiymətləndiricilər ərazidə obyektiv qiymətləndirmə aparır və yalnız bundan sonra köçürülmə proseduruna başlanılır. "Bu ardıcıllıqla hərəkət edildiyi halda mövcud qanunvericilik çərçivəsində prosesin hüquqi və ədalətli şəkildə idarə olunması mümkündür. Əsas problem prosesin qanunla nəzərdə tutulan formada aparılmamasıdır. Bu sahədə fəaliyyət göstərən investorlar da dövlət qurumları kimi zəruri hallarda müstəqil qiymətləndiricilərlə işləməli, kompensasiya məbləğini təsadüfi və əsaslandırılmamış qiymət siyasəti ilə deyil, bazar dəyəri və beynəlxalq qiymətləndirmə standartları əsasında müəyyən etməyi öyrənməlidirlər", - deyə o əlavə edir.

### ƏDALƏTLİ VƏ ŞƏFFAF MEXANİZM

Əmlak məsələləri üzrə ekspert Nofəl Quliyevin fikrincə, söküntü proseslərində ən ciddi problemlərdən biri məhz kompensasiya məsələsidir. Onun sözlərinə görə, tikinti şirkətləri prosesləri elə qururlar ki, əsas qazancı özləri əldə edirlər: "Nəticədə vətəndaş ya ona təklif olunan vəsaitlə ev ala bilmir, ya da yaşadığı mənzildən çıxmaqdan imtina edir. Vətəndaşlara bir sıra ərazilərdə hər kvadratmetr üçün 2700 manat kompensasiya təklif olunur, lakin bu məbləğ real bazar dəyərini əks etdirmədiyindən ciddi narazılığa səbəb olur. Bəzi hallarda söküntü işləri ev sahibi hələ həmin ərazidə yaşadığı halda aparılır, kommunal xətlər kəsilir və insanlar faktiki olaraq ağır sosial vəziyyətlə üzləşirlər".

Ekspert əlavə edir ki, gələcəkdə yeni qanun qəbul olunarsa, bəzi problemlər tamamilə aradan qalxa bilər. Onun sözlərinə görə, bu məsələ təkcə hüquqi və iqtisadi deyil, eyni zamanda sosial xarakter daşıyır. "Yeni qanunun hazırlanması təşəbbüsü müsbət addımdır və əgər bu istiqamətdə konkret tədbirlər görülərsə, kompensasiya məsələsində daha ədalətli və şəffaf mexanizm formalaşdırıla bilər",- deyə ekspert fikrini yekunlaşdırır.



Nofəl Quliyev

PİYADALARIN TƏHLÜKƏSİZLİYİ QƏBUL EDİLƏCƏK YENİ STANDARTLARLA QORUNACAQ

# PİYADALAR DAHA ÇOX QORUNAN TƏRƏF OLACAQ

Piyadaların hərəkət təhlükəsizliyi ilə bağlı yeni dövlət standartının qəbulu gözlənilir. Rəsmi qurumlar bu addımı yol infrastrukturunda təhlükəsizlik və keyfiyyət tələblərinin vahid çərçivədə tənzimlənməsi kimi dəyərləndirsə də, real vəziyyətlə bağlı fikirlər birmənalı deyil.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Piyadaların iştirakı ilə baş verən yol-nəqliyyat qəzaları cəmiyyətdə ciddi narahatlıq doğurur. Bu fonda Azərbaycanda piyadaların hərəkət təhlükəsizliyi ilə bağlı yeni dövlət standartının qəbuluna hazırlıq aparılması mövzunu yenidən gündəmə gətirib. Belə ki, Azərbaycanda "Avtomobil yolları və küçələr. Piyadaların hərəkət təhlükəsizliyi. Ümumi tələblər" dövlət standartının qəbulu gözlənilir. Bu barədə Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) məlumat yayıb.

Rəsmi qurumlar bu addımı yol infrastrukturunda təhlükəsizlik və keyfiyyət tələblərinin vahid çərçivədə tənzimlənməsi kimi dəyərləndirsə də, real vəziyyətlə bağlı fikirlər birmənalı deyil. Bir tərəf Bakının yol şəbəkəsinin piyadalar üçün kifayət qədər əlverişli olduğunu düşünür, digər tərəf isə piyada keçidlərinin, nişanlanmanın və ümumi şəhər mühitinin təhlükəsizliyə cavab vermədiyini bildirir.

## "YOL İNFRASTRUKTURU PİYADALAR ÜÇÜN QİSMƏN ƏLVERİŞLİDİR"

Nəqliyyat məsələləri üzrə mütəxəssis Eldəniz Cəfərov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, Bakı şəhərində mövcud olan hazırkı yol infrastrukturu piyadalar üçün qismən əlverişlidir: "Yeni "ağıllı" işıqforlar quraşdırılıb və piyada zonalarının yaradılması prosesi davam edir. Lakin hələ də çatışmazlıqlar mövcuddur. Bəzi keçidlərin yerləşməsi piyada axınına uyğun deyil, yeraltı keçidlərdə panduslar düzgün quraşdırılmayıb, eskalatorların işləməməsi isə yaşlı və əlilliyi olan şəxslər, eləcə də uşaqlar üçün əngəl yaradır. Piyadalar üçün ayrılan işıqfor vaxtı bəzən kifayət etmir və insanlar yolu qaça-qaça keçməli olurlar. Məsələn, Yusif Səfərov küçəsində çoxzolaqlı yolda işıqforun vaxtı qısa olduğundan piyadalar təhlükə ilə üz-üzə qalırlar. Ümumilikdə, piyadaların sərbəst və təhlükəsiz hərəkətini təmin etmək üçün keçidlərin yerləşməsi, işıqforların vaxtının yenidən nəzərdən keçirilməsi və infrastruktura aid digər təkmilləşdirmələr vacibdir. Xüsusən məktəblərə yaxın ərazilərdə təhlükəsizliyi təmin edən tədbirlərin görülməsi önəm daşıyır".

## SKUTERLƏR PİYADALARA POTENSİAL TƏHLÜKƏ YARADIR

Bəzi insanlar düşünürlər ki, skuter, velosiped və digər mikronəqliyyat vasitələrinin artması piyadalar üçün təhlükə yaradır. Mütəxəssis bildirir ki, şəhər mühitində mexaniki velosipedlər ümumiyyətlə təhlükəsiz hesab olunur: "Lakin digər mikromobillik vasitələrini idarə edən bəzi şəxslər, qaydaları bilməyən və məsuliyyətsiz sürücülər potensial təhlükə yaradırlar. Digər təhlükə isə odur ki, hazırda Bakı şəhərində velosiped zolaqlarını hər yerdə çəkmək mümkün deyil. Şəhərsalma planlamasında vaxtilə edilmiş nöqsanlar və tikinti özbaşınalıqları bu imkanları məhdudlaşdırır. Nəticədə, səkilərdə piyadalarla toqquşmalar baş verir, konflikt yaranır. Bu nəqliyyat vasitələrin sürətinə və istifadə qaydalarına nəzarət artırılmalı, sürücülərin yol hərəkəti mədəniyyətinin formalaşması üçün müəyyən tədbirlər görülməlidir".

## Piyada təhlükəsizliyi layihələndirmədə əsas meyar kimi

E.Cəfərov vurğulayır ki, yeni standart şəhərsalma sahəsində ciddi və konseptual dəyişikliklərə yol aça bilər: "Bu standart qəbul olunduqda, piyada təhlükəsizliyi yol infrastrukturu layihələndirilməsində əsas meyarlardan birinə çevriləcək və prioritet olaraq nəzərə alınacaq. Yeni yollar və küçələr yalnız avtomobil hərəkəti üçün deyil, həm də piyadalar üçün planlaşdırılacaq. Piyada keçidləri, onların işıqlandırılması, görmə bucaqları və küçələrin işıqlandırılmasında istifadə olunan işıq dirəklərinin standartları yenidən müəyyən ediləcək. Məktəb, park və digər ictimai obyektlər ətrafında xüsusi təhlükəsiz zonaların yaradılması da bu standartın tələbi kimi qoyulacaq. Sərt tələblər tövsiyə xarakterli olmayacaq, texniki şərt kimi icra olunanacaq".

## "Şəhər daha çox piyada yönümlü olacaq"

E.Cəfərov deyir ki, piyada təhlükəsizliyini artırmaq üçün ilk növbədə avtomobillərin səkiləri zəbt etməsinin qarşısı alınmalıdır: "Bütün yaşayış və qeyri-yaşayış obyektlərinin parklanmaları təşkil olunmalıdır. Bu, yalnız layihədə nəzərdə tutulmaqla kifayətlənməməli, reallıqda da icra edilməlidir. Piyada keçidləri işıqlandırılmalı, məktəb yaxınlığında olan ərazilərdə, yollarda sürəti məhdudlaşdıran tədbirlər görülməlidir. Xəbərdaredici və qadağanedici nişanların sayı da artırılmalıdır. Qadağanedici nişanlar şəhərdə kifayət qədər olsa da, xəbərdaredici nişanlar azdır və onların artırılması vacibdir. Şəhərin müxtəlif ərazilərində sürət həddi maksimum 60 km/saatdan 30 km/saatadək endiriləcək. Bu proses nəticəsində şəhər daha çox piyada yönümlü olacaq. Əgər bu standart düzgün tətbiq edilərsə, şəhərdə piyadalar daha qorunan tərəf olacaq".

## "Cəmiyyət yeni mühitə uyğunlaşmalıdır"

Yol infrastrukturu üzrə ekspert Yasin Mustafayev deyir ki, şəhər mühitində uzun illər əsas diqqət avtomobillərin hərəkəti üçün yolların salınmasına yönəlib, piyadaların rahat və təhlükəsiz hərəkəti isə nəzərə alınmayıb. Nəticədə bu gün bəzi ərazilərdə piyadaların hərəkəti real həyati risk daşıyır: "Düzdür, son illər müəyyən yerlərdə səkilər, piyada keçidləri, panduslar quraşdırılıb. Lakin hələ də bir sıra ərazilərdə ciddi problemlər var. Müsbət məqam ondan ibarətdir ki, bu istiqamətdə artıq daha sistemli və genişmiqyaslı addımlar atılır".

Mütəxəssis bildirir ki, skuterlər və velosipedlər müəyyən mənada piyadalar üçün təhlükə yarada bilər. Amma cəmiyyət bu yeni hərəkət mühitinə uyğunlaşmalıdır: "Ümumiyyətlə, dinamik hərəkət edən hər bir nəqliyyat vasitəsi hər hansı manea ilə toqquşduqda riskli vəziyyət formalaşdırır. Bu risk yalnız velosiped və skuterlərlə məhdudlaşmır. İnsanlar avtomobil yoluna çıxarkən necə ehtiyat edirlərsə, velosiped və skuter zolaqlarına münasibətdə də eyni davranış sərgiləməlidirlər. Yeni dövlət standartları beynəlxalq və dünya təcrübəsinə əsaslanaraq hazırlanır və yerli şəraitə uyğunlaşdırılır".


Eldəniz Cəfərov
Yasin Mustafayev

# HAKİMLƏRİN SAYI 700-Ü KEÇƏCƏK

**Bu barədə Azərbaycan Hakimlərinin II Forumunda məlumat verilib. Qeyd edilib ki, hazırda məhkəmə sistemində süni intellektin tətbiqi ilə bağlı da konkret addımlar atılır.**



Bakıda Azərbaycan Hakimlərinin II Forumu keçirilib. 600-dək məhkəmə hakimi, həmçinin Məhkəmə-Hüquq Şurası üzvlərinin qatıldığı tədbirin məqsədi hüquq ictimaiyyətini və cəmiyyəti Azərbaycanda gedən məhkəmə-hüquq islahatları barədə məlumatlandırmaqdır.

Forum çərçivəsində məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar, qarşıda duran əsas vəzifələr, habelə ədalət mühakiməsi sahəsində mövcud olan müasir çağırışlar müzakirə olunub.

### MƏHKƏMƏ SİSTEMİNDƏ SÜNİ İNTELLEKTİN TƏTBİQİ

Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, Azərbaycan məhkəmə sistemində süni intellektin tətbiqi ilə bağlı konkret addımlar atılır. Onun sözlərinə görə, Azərbaycan məhkəmə sisteminin daha da inkişafı üçün bir sıra vacib vəzifələr var: "Burada vahid məhkəmə təcrübəsinin daha geniş tətbiqi sayəsində qərarların proqnozlaşdırıla bilən olması mühüm əhəmiyyət daşıyır. Həmçinin, hakimlərin iş yükünün optimallaşdırılması, onların sosial təminatının gücləndirilməsi və etik davranış qaydalarının təkmilləşdirilməsi məsələləri də diqqət mərkəzindədir. Bununla yanaşı, məhkəmələrdə informasiya və kommunikasiya texnologiyalarının inkişafı və süni intellektin tətbiqi mürəkkəb işlərin analizində və qərarların dəqiqliyinin artırılmasında əhəmiyyətli rol oynayacaq".

Ali Məhkəmənin sədri bildirib ki, süni intellektin məhkəmə-hüquq sahəsində də tətbiqi reallığa çevrilib: "Düzgün istifadə olunduqda məhkəmə təcrübəsinin təhlili, hüquqi sənədlərin hazırlanması və risklərin qiymətləndirilməsi prosesində mühüm dəstək vasitəsi kimi çıxış edə bilər. Ona görə də hazırda məhkəmə sistemində süni intellektin tətbiqi ilə bağlı konkret addımlar atılır".


İnam Kərimov

## "83 hüquqşünas hakim vəzifəsinə təyin olunub"



İ.Kərimov qeyd edib ki, Azərbaycanda bu il hakimlərin sayının 700-ü keçəcəyi proqnozlaşdırılır. Onun sözlərinə görə, 2025-ci ildə məhkəmələrdə iş yükü əhəmiyyətli dərəcədə artıb: "Buna baxmayaraq, hakimlərimizin peşəkarlığı, yüksək məsuliyyət hissi və çevikliyi sayəsində işlərə vaxtında baxılması təmin edilib. Şəffaf seçim mexanizmi əsasında 83 yüksək hazırlıqlı hüquqşünas hakim vəzifəsinə təyin olunub. Beləliklə, hakim korpusunun sayı 676 nəfərə çataraq ilk dəfə maksimum həddə yüksəlib. Bu il isə hakimlərin sayının 700-ü keçməsi proqnozlaşdırılır. Bu, həm iş yükünün optimallaşdırılmasına, həm də ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına töhfə verəcək".

İnam Kərimov vurğulayıb ki, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, hüquqi məsələlərin həllində yanaşmanın sabitliyinin və məhkəmə mövqelərinin proqnozlaşdırılan olmasının təmini istiqamətində işlər davam etdirilib: "Belə ki, əlavə və dəyişikliklərlə birgə Ali Məhkəmə tərəfindən 10 Plenum qərarı, 2 kollegiya qərardadı qəbul edilib, 45 yekun məhkəmə qərarına 3 ulduz statusu verilib".

## Ədalətə olan inamın əsas təminatçısı

Hakimlər İttifaqının sədri Ramiz Rzayev qeyd edib ki, hakimlər cəmiyyətin ədalətə olan inamının əsas təminatçısıdır. Onun sözlərinə görə, müasir dövrdə məhkəmə hakimiyyətinin qarşısında duran vəzifələr təkcə hüququ tətbiq etməklə məhdudlaşmır: "Hakimlər cəmiyyətin ədalətə olan inamının əsas təminatçısıdır. Bu inam isə yalnız peşəkarlıq, obyektivlik və qanunun aliliyi prinsiplərinə sadiqliklə deyil, eyni zamanda, institusional güc, həmrəylik və davamlı inkişafla möhkəmlənir".

R.Rzayev bildirib ki, Azərbaycan Hakimlər İttifaqı da məhz bu məqsədlə fəaliyyətini davam etdirir: "İttifaqımızın əsas vəzifələrindən biri hakimlərin peşə fəaliyyətinə dəstək vermək, onların hüquqlarının qorunması, peşəkar inkişafının təşviqi və hakimlər arasında sağlam, konstruktiv əməkdaşlıq mühitinin formalaşdırılmasıdır. Son dövrlərdə bu istiqamətdə görülən işlər, həyata keçirilən təşəbbüslər və qurulan beynəlxalq əlaqələr fəaliyyətimizin düzgün və ardıcıl istiqamətdə davam etdiyini göstərir".




# Avropa Komissiyasından SOCAR-la bağlı qərar

Avropa Komissiyası Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) İtaliya şirkəti "Italiana Petroli"nin (IP) 99,82% səhmlərini "API Holding"dən almasını təsdiqləyib. Bu barədə "Report" komissiyaya istinadən xəbər verir.

"Sövdələşmə əsasən xam neft və neft məhsullarının tədarükünü əhatə edir", - Avropa Komissiyasından bildirilib. Təşkilatdan qeyd edilib ki, satınalma nəticədə yaranan məhdud bazar mövqelərini nəzərə alaraq, rəqabət sahəsində problem yaratmayacaq. Buna görə də məsələyə birləşmələr üzrə sadələşdirilmiş prosedur çərçivəsində baxılıb.

"Italiana Petroli" İtaliyanın ən iri inteqrə olunmuş "downstream" platformalarından biridir. Şirkət ölkə üzrə minlərlə yanacaqdoldurma məntəqəsinə, ildə təxminən 10 milyon ton emal gücünə malik iki neft emalı zavoduna, həmçinin bitum, aviasiya yanacağı və sürtgü yağları kimi xüsusi məhsulların satışına və ölkəni tam əhatə edən logistika şəbəkəsinə sahibdir.

Xatırladaq ki, SOCAR və "API Holding" arasında "Italiana Petroli"nin səhmlərinin 99,82%-nin satın alınması haqqında saziş 2025-ci il sentyabrın 23-də imzalanıb. Bu satınalma SOCAR-ın Avropa enerji bazarında mövcudluğunu genişləndirmək baxımından mühüm addım olmaqla yanaşı, Azərbaycanın İtaliya ilə iqtisadi və enerji əməkdaşlığının möhkəmlənməsinə, həmçinin Avropanın enerji təhlükəsizliyi və dayanıqlı inkişafına töhfə verəcək.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 257
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# YANACAQ XƏRCLƏRİ NİYƏ AZALMIR?

**Qənaətcil avtomobillərin artmasına baxmayaraq, daşımalar, tıxaclar və köhnə avtopark yanacaq xərclərinin azalmasına imkan vermir. Ekspertlər hesab edirlər ki, mövcud şəraitdə yaxın dövrdə də xərclərin azalması real görünmür.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Azərbaycanda elektromobil və hibrid avtomobillərə edilən vergi güzəştləri ümumilikdə avtomobil parkının yenilənməsini sürətləndirib. Son vaxtlar paytaxt Bakının küçələrində daha çox yeni və qənaətcil avtomobillər görürük. Bu, əslində vətəndaşların yanacağa çəkdiyi xərcləri də azaltmalı idi. Amma rəsmi statistika fərqli mənzərə ortaya qoyur. Ötən il Azərbaycanda pərakəndə ticarət şəbəkəsində istehlakçılar təkcə avtomobil benzini və dizel yanacağına 3 milyard 856,3 milyon manat xərcləyib. Bu, əvvəlki illə müqayisədə 7,8 faiz çoxdur. Məntiqə görə, yanacağa qənaət edən avtomobillərin artması xərclərin azalmasına gətirib çıxarmalı idi. Deməli, problem yalnız avtomobillərin texniki göstəricilərində deyil. Bəs yanacağa tələbatı artıran əsas amillər hansılardır?

### “BÜTÜN AVTOPARKIN YENİLƏNMƏSİ ÜÇÜN İLLƏR LAZIMDIR”

Azərbaycanın Avtomobil Dilerləri Assosiasiyasının sədri Eyyub Əliyev bildirir ki, benzin və dizelə sərf olunan vəsaitin artması mövcud şəraitdə normaldır: “Bunun əsas səbəbi daşımaların hələ də əsasən benzin və dizellə işləyən avtomobillərlə həyata keçirilməsidir. Güzəştlər nəticəsində avtopark qismən yenilənsə də, bu, bütün avtomobil parkının dəyişməsi demək deyil. Məsələn, taksi parkının 60-70 faizi yenilənib. Vətəndaşlar ikinci əl, köhnə avtomobil almaqdan imtina edərək, daha yeni elektrikli avtomobillərə yönəliblər. Amma bütün avtoparkın yenilənənməsi üçün illər lazımdır. Ona görə də düşünürəm ki, yalnız müəyyən dövrdən sonra yanacaq sərfiyyatının azalmasını müşahidə etmək mümkün olacaq”.

E.Əliyevin sözlərinə görə, güzəştlərin ləğvi insanların yenidən benzin və dizellə işləyən avtomobillərə yönəlməsinə səbəb olacaq: “Gələcəkdə hibrid və elektromobillər özünü tam doğruldarsa, vətəndaşlar onları daha çox əldə etmək istəyəcək. Hibrid avtomobillər artıq etibar qazanıb, lakin elektromobillərə hələ də ehtiyatla yanaşılır”.

E.Əliyev əlavə edir ki, tıxaclar da yanacaq sərfiyyatını artırır: “Şəhərdə mikromobilliyin və avtobusla daşımaların inkişafı bu baxımdan müsbət təsir göstərə bilər. Hazırkı vəziyyətdə isə xərclərin azalacağı real görünmür. Əksinə, bu il artımın davam edəcəyi ehtimal olunur. Çünki avtomobillərə tətbiq olunan güzəştlər dayandırılıb, ikinci əl bazara maraq artıb və daxiliyanma mühərrikli avtomobillər yenidən gündəmə gəlib”.

## “Xidmət sektorunda daşınma dövriyyəsi artıb”

Bakı Ali Neft Məktəbinin Biznesin idarə edilməsi kafedrasının müdiri Altay İsmayılov isə bildirir ki, 2025-ci ildə yanacaq sərfiyyatının artmasının əsas səbəblərindən biri yük və sərnişin daşımalarıdır: “Xidmət sektorunda daşınma dövriyyəsi artıb. Kuryer fəaliyyəti, onlayn ticarət və yüklərin daşınması da bu artımda rol oynayır. Tıxaclar da yanacaq sərfiyyatını xeyli artırır. Elektrikli və hibrid avtomobillərin ümumi avtoparkda payı hələ o qədər də yüksək deyil. Buna görə də hələlik yanacaq sərfiyyatına ciddi təsir göstərmir”.




A.İsmayılov əlavə edir ki, iqtisadi aktivliyin artması da yanacaq sərfiyyatını yüksəldir: “Tikinti sahəsində istifadə olunan texnika əsasən dizel yanacağı ilə işləyir. Ticarət sektorunda da daşımaların artması müşahidə olunur”.

### İCTİMAİ NƏQLİYYATIN ELEKTRİKLƏŞMƏSİ DƏ TÖHFƏ VERƏ BİLƏR

Ekspertin sözlərinə görə, yanacaq sərfiyyatını azaltmaq üçün ictimai nəqliyyatın cəlbediciliyinin artırılması vacibdir: “Keyfiyyətin yüksəldilməsi, intervalların azaldılması, inteqrasiya olunmuş ödəniş sisteminin tətbiqi və müəyyən endirimlər bu baxımdan əhəmiyyətli ola bilər. Şəxsi avtomobildən imtina da müsbət təsir göstərə bilər. İctimai nəqliyyatın və taksilərin mərhələli şəkildə elektrikləşdirilməsi yanacaq sərfiyyatına daha əsaslı təsir göstərə bilər”.

A.İsmayılovun fikrincə, yaxın müddətdə sərfiyyatın azalacağını gözləmək çətindir: “Xüsusilə bu il qiymətlərin artması fonunda statistik göstəricilərin aşağı düşəcəyi real görünmür. Yəni istehlak eyni səviyyədə qalsa belə, xərclər arta bilər. Müəyyən tədbirlər görülsə, artımın sürətini azaltmaq mümkün olar. Elektromobil və hibrid avtomobillərin sayını qısa müddətdə kəskin artırmaq mümkün deyil, bunun üçün vaxt lazımdır. Taksilərin və kuryer nəqliyyatının elektrikləşdirilməsi müəyyən qədər təsir göstərə bilər”.

### SƏBƏB YAŞI 10-DAN YUXARI OLAN AVTOMOBİLLƏRDİR

Nəqliyyat eksperti Aslan Əsədov qeyd edir ki, yanacağa çox pul xərclənməsi adətən qiymət artımı ilə əlaqələndirilir, lakin ötən il yanacağın qiymətində artım olmayıb: “Bizdə yaşı 10-dan yuxarı olan avtomobillər ümumi avtoparkın 70-80 faizini təşkil edir. Onlar əsasən benzin və dizellə işləyir. Bu səbəbdən yanacağa xərclənən vəsaitin hələ də artması normaldır. Elektromobillərin avtomobil parkında payı o qədər də böyük deyil. Ona görə də onlar ümumi yanacaq sərfiyyatının azalmasına təkan verə bilmirlər”.

# SEÇİM DEYİL, STRATEJİ ZƏRURƏTDİR

**Rəqəmsallaşma məktəbdə kompüter sayının artması ilə məhdudlaşmamalıdır. Düşüncə tərzinin dəyişməsi, tədris metodlarının yenilənməsi, müəllim hazırlığının gücləndirilməsi və bərabər imkanların təmin olunması kompleks həll edilməlidir.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Müasir dünyada rəqəmsallaşma təhsil mənzərəsini dəyişdirir və müasir təlim mühitinin əsas elementinə çevrilir. Təhsilin rəqəmsallaşdırılması orta və ali məktəblərdə tədrisin keyfiyyətini artırmaq, təhsil resurslarının mövcudluğunu yaxşılaşdırmaq üçün imkanlar yaradır.

Prezident İlham Əliyevin "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə diqqət çəkdiyi məsələ də ölkəmizin təhsil mühitinin dünyada gedən meyillər və trendlərlə ayaqlaşması - həm ölkəmizdə fəaliyyət göstərən ali məktəblərdə, həm də dövlət xətti ilə xaricə göndərilən tələbələrin bu ixtisas üzrə peşəkarlığının artırılması ilə bağlıdır: "Gələcəkdə bu sahədə kadrlara böyük ehtiyac olacaq. Təbii ki, orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına da müəyyən dəyişikliklər edilməlidir".

Təhsil işçiləri hesab edirlər ki, Prezidentin tədrisdə rəqəmsallaşma ilə bağlı çağırışı mövcud vəziyyətin təhlilini və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsini aktuallaşdırır.

### "RƏQƏMSALLAŞDIRMA İSTİQAMƏTİNDƏ ARTIQ MÜƏYYƏN ADDIMLAR ATILIB"

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının (AGMA) sədri Pərvinə Qədimovanın fikrincə, təhsildə rəqəmsallaşma artıq seçim deyil, strateji zərurətdir: "Xüsusilə orta məktəblərdə şagirdlərə ilkin rəqəmsal biliklərin aşılanması və bu istiqamətdə tədris proqramlarının yenilənməsi məsələsi təhsilin gələcək inkişaf trayektoriyasını müəyyənləşdirən əsas amillərdəndir. Azərbaycanda təhsilin rəqəmsallaşdırılması istiqamətində artıq müəyyən addımlar atılıb. Məktəblərdə elektron jurnal və gündəlik sistemlərinin tətbiqi, onlayn resursların və platformaların istifadəsi, STEAM əsaslı yanaşmanın təşviqi, müəllimlərin rəqəmsal bacarıqlarının artırılması üçün keçirilən təlimlər bu prosesin tərkib hissəsidir. Lakin mövcud vəziyyət göstərir ki, rəqəmsallaşma daha çox alətlərin tətbiqi səviyyəsindədir, məzmun və metodologiya baxımından isə hələ də sistemli transformasiyaya ehtiyac var".

AGMA sədrinin fikrincə, bir çox məktəbdə infrastruktur imkanları - internet sürəti, texniki avadanlıq, kompüter təminatı eyni səviyyədə deyil. Regionlar arasında rəqəmsal imkan fərqi də qalmaqdadır. Bu isə təhsil bərabərliyinə birbaşa təsir göstərir.

P.Qədimova hesab edir ki, əsas ehtiyaclardan biri tədris proqramlarının yenilənməsidir: "Şagirdlər sadəcə kompüterdən istifadə etməyi deyil, informasiya təhlükəsizliyini, rəqəmsal etik davranışı, süni intellekt alətlərindən düzgün və məsuliyyətli istifadəni, məlumatların təhlilini və tənqidi düşüncəni öyrənməlidirlər. Bu isə kurikulumun məzmun baxımından yenidən işlənməsini tələb edir".

### "RƏQƏMSAL TRANSFORMASİYA MÜƏLLİMDƏN BAŞLAYIR"

AGMA sədrinin fikrincə, digər mühüm məsələ kadr hazırlığıdır. Belə ki, rəqəmsal transformasiya müəllimdən başlayır: "Müəllim yalnız texniki istifadəçi deyil, rəqəmsal pedaqogikanın daşıyıcısı olmalıdır. Bu baxımdan, müəllimlərin davamlı ixtisasartırma proqramlarına cəlb olunması, praktik yönümlü təlimlərin təşkili, süni intellekt və rəqəmsal qiymətləndirmə alətləri üzrə metodik dəstəyin verilməsi vacibdir. Ali pedaqoji təhsil müəssisələrində də gələcək müəllimlər üçün rəqəmsal pedaqogika modullarının genişləndirilməsi zəruridir. Nəticə etibarilə, rəqəmsallaşma məktəbdə kompüter sayının artması ilə məhdudlaşmamalıdır. Bu, düşüncə tərzinin dəyişməsi, tədris metodlarının yenilənməsi, müəllim hazırlığının gücləndirilməsi və bərabər imkanların təmin olunması deməkdir. Əgər bu proses sistemli və mərhələli şəkildə həyata keçirilərsə, Azərbaycan təhsili rəqəmsal transformasiyanı formal yenilik kimi deyil, keyfiyyət sıçrayışı kimi yaşaya bilər".

### TEXNİKİ BAZA VƏ İNTERNET TƏMİNATI YAXŞILAŞDIRILMALIDIR

118 saylı tam orta məktəbin informatika müəllimi Pərvanə Çopsiyeva da düşünür ki, rəqəmsal inkişaf üçün ən vacib başlanğıc nöqtəsi məhz orta məktəblərdir: "Şagirdlərə ilkin rəqəmsal biliklərin sistemli və mərhələli şəkildə aşılanması üçün tədris proqramlarına ciddi dəyişikliklər edilməlidir. İnformatika dərsi yalnız kompüterin əsas hissələrini tanıtmaqla məhdudlaşmamalı, proqramlaşdırma məntiqi, alqoritmik düşüncə, kibertəhlükəsizlik qaydaları və süni intellekt haqqında ilkin anlayışları da əhatə etməlidir. Bu biliklər erkən yaşlardan verildikdə, uşaqlar texnologiyanı sadəcə istifadə edən deyil, onu yaradan tərəfə çevrilə bilərlər".

P.Çopsiyeva hesab edir ki, praktiki məşğələlərin sayı da artırılmalı, şagirdlər layihə əsaslı öyrənməyə cəlb olunmalıdırlar: "Məktəblərin texniki bazası gücləndirilmədən və internet təminatı yaxşılaşdırılmadan bu dəyişikliklərin effektivliyi tam təmin edilə bilməz. Digər mühüm məsələ isə kadr hazırlığıdır. Güclü tədris proqramı yalnız onu keyfiyyətlə tədris edən müəllim olduqda nəticə verir. Eyni zamanda, ali təhsil müəssisələrində İT sahəsində mütəxəssis hazırlığı gücləndirilməli, praktik biliklərə üstünlük verilməlidir. Təbii ki, sürətlə inkişaf edən dünyamızda bu axına uyğunlaşmaq asan olmayacaq. Yəni məsələ təkcə texniki avadanlıqda deyil. Orta məktəbdə düzgün qurulmuş təməl və güclü kadr hazırlığı gələcək rəqəmsal cəmiyyətin əsasını təşkil edəcək".



## SÜNİ İNTELLEKT TƏHSİLİMİZDƏ İNQİLAB EDƏ BİLƏR, ANCAQ...

ABŞ-də yaşayan təhsil eksperti Qoşqar Məhərrəmov hesab edir ki, süni intellekt Azərbaycan təhsilində inqilab edə bilər, amma bu inqilabın mümkün olması üçün zəruri şərtlər var: "İlk növbədə məktəblərin siniflərində, universitetlərin auditoriyalarında müəllimin istifadəsi üçün internetə bağlı kompüterlər olmalıdır. Əlavə olaraq, şagirdlərin və tələbələrin şəxsi smartfonları və ya planşetləri ilə qoşula biləcəkləri WiFi şəbəkəsi zəruridir. Müəllimlərin kompüteri fundamental səviyyədə bilməyi lazımdır. Bunlar olmadan süni intellekt ilə təhsildə transformasiya haqqında ancaq şeir yaza bilərik".



Pərvinə Qədimova



Pərvanə Çopsiyeva



Qoşqar Məhərrəmov

# DOLLARIN "ŞAH DÖVRÜ" BİTİR?

Valyuta hərraclarında təklifin tələbi üstələməsi və dollar alışının son illərin minimumuna enməsi bazarda davranış dəyişikliklərinə işarə edir. Ekspertlər bunu manat depozitlərinin daha yüksək gəlirliliyi, məzənnə sabitliyi və makroiqtisadi balansın güclənməsi ilə əlaqələndirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Valyuta bazarında müşahidə olunan son dinamika iqtisadi mühitdə davranış dəyişikliklərinin başladığını göstərir. Mərkəzi Bankın sədri Taleh Kazımov bildirib ki, ötən il valyuta hərraclarında təklif tələbi üstələyib. Bir hərracda 70 milyon dollar təklif olunduğu halda, tələb 54 milyon dollar təşkil edib. Yanvar ayında isə əhali tərəfindən dollar alışı son üç-dörd ilin ən aşağı səviyyəsinə - 18 milyon dollara enib. Bundan əlavə, Neft Fondunun transfertlərinin bir hissəsinin dollar şəklində Maliyyə Nazirliyinə təklif edilməsi və tələb yarandıqda bazara çıxarılmağa hazır olması valyuta təklifinin kifayət qədər olduğunu göstərir. Bu statistika bir neçə mühüm sual doğurur: Əhalinin dollara marağı niyə zəifləyib? Təklifin tələbi üstələməsi müvəqqətidir, yoxsa uzunmüddətli meyildir?

### "DOLLAR EHTİYAT VASİTƏSİNƏ ÇEVRİLİR"

Maliyyə və bank məsələləri üzrə ekspert İsmayıl Məmmədovun fikrincə, dollar funksiyasını dəyişir: "Azərbaycanda dolların "şah dövrü"nün başa çatdığı barədə fikirlər daha çox səslənir. Əgər qorxu ilə alınan, psixoloji sığınacaq funksiyası daşıyan valyuta nəzərdə tutulursa, həqiqətən də həmin mərhələ arxada qalır. Lakin bu, dolların iqtisadiyyatdan çıxması anlamına gəlmir. Sadəcə, onun funksiyası dəyişir: dollar investisiya və qorxu alətindən rasional ödəniş və ehtiyat vasitəsinə çevrilir. Bu dəyişiklik iqtisadi zəifliyin deyil, makroiqtisadi yetkinliyin göstəricisi kimi qiymətləndirilə bilər".



İsmayıl Məmmədov

İ.Məmmədovun fikrincə, əhalinin dollara marağının azalmasında əsas amillərdən biri real faiz fərqidir: "Manat depozitləri illik 10-12 faizədək gəlir təklif etdiyi halda, dollarla qorunan əmanətlərin gəlirliliyi təxminən 2-2,5 faiz civarındadır. Fisher effektinə görə, kapital real gəlir gətirən aktivə yönəlir. Bu şəraitdə dollar saxlamaq daha aşağı gəlir deməkdir. Nəticədə əhali üçün "dollar qazandırmır" reallığı formalaşıb. Digər mühüm faktor məzənnə sabitliyidir. 2017-ci ildən bəri manat-dollar məzənnəsinin faktiki dəyişməməsi devalvasiya gözləntilərini zəifləbib. Uzunmüddətli sabitlik fonunda əhali artıq valyutanı qorxu motivi ilə almır. Valyuta bazarında təklifin tələbi üstələməsi də bu dinamikanın davamıdır. Neft gəlirlərinin bazara planlı şəkildə çıxarılması, xarici ticarət balansında müsbət saldo və bank sistemində yüksək manat likvidliyi bazarda dollar bolluğu yaradır".

### "ƏHALİ ARTIQ İQTİSADİ HESABLA QƏRAR VERİR"

Ekspert bildirdi ki, manat gündəlik iqtisadi dövriyyədə dominant valyutaya çevrilib: "Vergilər, kreditlər, ödənişlər və daxili alqı-satqılar manatladır. Dollar artıq iqtisadiyyatın aktiv dövriyyə vasitəsi deyil, daha çox xarici əməliyyatlarda istifadə olunan alətə çevrilib. Bu da dolların "anbarda saxlanılan sərmayə" funksiyasını zəiflədir. Cari əməliyyatlar balansının müsbət olması, fiskal qaydaların işləməsi və dollarlaşma səviyyəsinin azalması prosesin təsadüfi deyil, struktur xarakter daşıdığını göstərir".





## ARTIQ MANAT DƏYƏR SAXLAYAN VASİTƏ KİMİ QƏBUL EDİLİR

İqtisadçı-ekspert Gündüz Camalzadənin fikrincə, Mərkəzi Bankın son açıqlaması valyuta bazarında davranış dəyişikliyinə işarə edir. Müşahidə olunan dinamikanın arxasında iqtisadiyyatdakı struktur dəyişikliklər dayanır. Son illər qeyri-neft sektorunun genişlənməsi və iqtisadiyyatın diversifikasiyası neft gəlirlərindən asılılığı nisbətən azaldıb. Qeyri-neft sahələrində istehsal və ixracın artması daha sabit valyuta axını formalaşdırır. Bu isə daxili bazarda dollar qıtlığı riskini minimuma endirir, manatın mövqeyini gücləndirir və əhalinin xarici valyutanı ehtiyat məqsədilə toplamaq motivini zəiflədir: "Dollar tələbinin azalmasının digər mühüm səbəbi makroiqtisadi sabitlikdir. İnflyasiyanın hədəf diapazonda saxlanılması və məzənnənin uzun müddətdir stabil qalması gözləntiləri dəyişib. Əhali artıq manatı qısamüddətli riskdən qorunma aləti kimi deyil, dəyər saxlayan vasitə kimi qəbul etməyə başlayır".

### "PUL SİYASƏTİ DAHA ÇEVİK APARILIR"

G.Camalzadə bildirir ki, Mərkəzi Bankın yanaşmasına görə, məzənnə sabitliyi inflyasiyanın əsas lövbəridir: "Güclü xarici ehtiyatlar və cari əməliyyatlar hesabında gözlənilən profisit valyuta bazarında tarazlığı qoruyur. Təklifin tələbi üstələməsi devalvasiya təzyiqini azaldır və ehtiyatların artırılmasına imkan yaradır. Klassik iqtisadi modelə əsasən, valyuta bolluğu milli pul vahidinin möhkəmlənməsi və ya ən azı sabit qalması üçün zəmin formalaşdırır. Xarici ticarət balansının profisitli olması da mühüm faktordur. İxracın idxalı üstələməsi ölkəyə əlavə valyuta daxilolmaları yaradır və məzənnə üzərində spekulyativ təzyiqləri zəiflədir. Bu vəziyyət pul siyasətinin daha çevik aparılmasına imkan verir. Xarici şoklar baş vermədiyi təqdirdə, müşahidə olunan proses müvəqqəti epizod deyil, struktur meyil kimi dəyərləndirilə bilər".



Gündüz Camalzadə

## "NAĞDSIZ DÖVRİYYƏDƏ ƏSAS VALYUTA MANATDIR"

İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyevin sözlərinə görə, son dövrlər manatla həm əmanətlərin, həm də alışların artması əhalinin dollara marağının azalması kimi şərh olunmamalıdır: "Bu proses daha çox son illər aparılan pul siyasəti və maliyyə tənzimləmələrinin nəticəsi kimi qiymətləndirilir. Xüsusilə nağdlaşmaya tətbiq edilən məhdudiyyətlər iri həcmdə vəsaitlərin nağdsız hesablarda saxlanmasına səbəb olub. Nağdsız dövriyyədə isə əsas valyuta manatdır. Ölkə daxilində bütün alqı-satqı əməliyyatlarının milli valyuta ilə aparılması da manata olan tələbi artıran əsas amillərdəndir. İnsanlar vəsaitlərini dollarla saxlasa belə, hər hansı əməliyyat zamanı həmin vəsaiti manata çevirməyə məcbur qalırlar. Bu isə dövriyyədə manat ehtiyacını yüksəldir".

R.Atakişiyev bildirdi ki, bu baxımdan manatlaşma prosesi yalnız psixoloji və ya davranış dəyişiklikləri ilə izah olunmur, həm də institusional və əməliyyat mexanizmlərinin nəticəsidir: "Dollara tələbin azalması risk kimi qiymətləndirilmir. Əksinə, bu, milli valyutaya inamın formalaşmasının göstəricisi hesab olunur".



Ruslan Atakişiyev

AZƏRBAYCANDA QRAMLA SATILAN ƏTİRLƏRƏ TƏLƏBAT YÜKSƏKDİR

# KİÇİK FLAKON, BÖYÜK RİSK

Qramla ətir satışı bu gün alıcıların tələbatını ödəyən əsas seqment sayılır. Lakin alıcılara təklif olunan məhsulun keyfiyyəti, mənşəyi və tərkibi ilə bağlı fikirlər birmənalı deyil.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda qramla ətir satışı getdikcə populyarlaşır. İstehlakçılar bahalı və brend ətirləri kiçik dozada və büdcələrinə uyğun ala bilirlər. Bu seçim imkanı cazibədar olsa da, məhsulun keyfiyyəti, tərkibi, sağlamlığa təsiri və nəzarət mexanizmləri sual altındadır.

Əvvəl qramla ətir bazarı daha çox metro keçidlərində və elan saytlarında idi. Son illərdə keyfiyyətli və premium modellər də qramla satışa çıxıb. Lakin keyfiyyətli və keyfiyyətsiz ətri ayırd etmək asan deyil. Dünyada da qramla ətir satışı populyardır. Çünki bu üsul həm istehlakçıya sərfəli seçim imkanı verir, həm də test etmək imkanı yaradır. Lakin keyfiyyət və təhlükəsizlik məsələlərinə diqqət etmək vacibdir.

## QRAMLA ƏTİRLƏR NEÇƏYƏ SATILIR?

Azərbaycan ətir bazarında qramla ətirlər 50 qəpikdən başlayaraq 10 AZN-ə qədər satılır. Qiymət əsasən satıcının seçiminə, məhsulun markasına və keyfiyyətinə bağlıdır. Elanların əksəriyyəti brend ətirlərin qramla satışı kimi təqdim olunur. İddia edilir ki, bu ətirlərin qalıcılığı paltarda üç gün, bədəndə isə bir gündür.

Qiymətə gəldikdə isə, 10 ml-lik ətirlər 5 AZN, 20 ml-lik ətirlər 10 AZN, 50 ml-lik ətirlər isə 20 AZN-dən təklif olunur.

## "ÖLKƏMİZDƏ QRAMLA SATILAN ƏTİRLƏRƏ TƏLƏBAT YÜKSƏKDİR"

Ətriyyatçı Elxan Hüseynov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, hazırda Azərbaycan ətir istifadəsinə görə öndə gedən ölkələrdən biridir: "Ölkəmizdə ətrə, xüsusilə də qramla satılan ətirlərə tələbat yüksəkdir. Hazırda qramlıq ətirlər



Elxan Hüseynov



deyəndə təkcə dünya markalarının bənzərləri olan yağ parfümlərin qramlığı nəzərdə tutulmur, həm də dünya brendlərinin öz ətirlərinin qramlıq satışı həyata keçirilir. Buna dekant satış deyilir. Yəni, ətirlər orijinal qablaşdırmadan ayrı, kiçik həcmlərdə satılır".

Qramla ətir alarkən diqqət edilməli məqamlara gəldikdə, müsahibimiz bildirir ki, bəzi satıcılar məhsulu keyfiyyətli göstərməyə çalışaraq alıcıları manipulyasiya edirlər: "Ətir fiziki məhsul olmadığı üçün alıcılar çox vaxt nüanslara fikir vermir və ya məlumatlı olmurlar. Qramlıq ətir satanlar isə əksər hallarda ətrin tünd rəngi və ya qatılığı ilə məhsulu keyfiyyətli göstərməyə çalışaraq manipulyasiya edirlər. Məlumatlı alıcını heç bir qeyri-peşəkar satıcı aldada bilməz".

## XƏRÇƏNG, SONSUZLUQ, DƏRİ PROBLEMLƏRİ...

Həmsöhbətimiz deyir ki, keyfiyyətsiz və saxta parfümlərin yaratdığı problem təkcə estetika ilə məhdudlaşmır: "Saxta parfümlərin tərkibində tez-tez ftalatlar və formaldehidlər kimi zərərli maddələrdən istifadə olunur. Ftalatlar ətir və kosmetikada qoxunun uzun müddət qalıcı olmasını təmin etmək və parfümün "yayılma" xüsusiyyətini yaxşılaşdırmaq üçün istifadə olunur. Ətirlərin az da olsa qalıcı olması üçün mənşəyi bəlli olmayan fiksatorlar əlavə edilir. Ətir uçucu maddələrdən hazırlandığı üçün bu cür zərərli komponentlər havaya yayılaraq birbaşa tənəffüs yollarımıza daxil olur və sağlamlıq üçün ciddi risk yaradır. Respirator xəstəliklərlə yanaşı, xərçəng xəstəliklərinə, sonsuzluğa və müxtəlif dəri problemlərinə səbəb ola bilər".

## "ƏTRİ HİSSİYYAT VƏ BİLGİ ƏSASINDA SEÇMƏK VACİBDİR"

Mütəxəssis keyfiyyətli ətir seçməyin sirlərini də bizimlə bölüşdü: "Keyfiyyətli və təhlükəsiz ətir seçimi üçün müştərilər ətirləri ilk olaraq savadlı satıcı-konsultantlardan və ya şəbəkə mağazalardan əldə etməlidirlər. Ətri yalnız xarici görünüşünə görə deyil, hissiyyat və bilgi əsasında seçmək vacibdir. Siz ətrin notlarını anlamağa və duymağa çalışmalısınız və impulsiv qərarlardan çəkinməlisiniz. Ətri seçimdən əvvəl dəri və ya kağız-blotter üzərində sınamaq tövsiyə olunur. Əgər ətrin mənşəyindən şübhələnirsinizsə və qoxuda "yanmış plastik" və ya xoşagəlməz "sirkə" qoxusu hiss edirsinizsə, məsləhətdir ki, ondan uzaq durasınız".



## Ən çox çirklənən seqment...

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov hesab edir ki, parfümeriya bazarı Azərbaycanda ən çox çirklənmiş seqmentlərdən biridir: "İllər əvvəl bu sahədə fəaliyyət göstərən iri pərakəndə şəbəkələrdən birinin mütəxəssislərinin və laboratoriyalarının dəstəyi ilə parfümeriya bazarı üzrə araşdırma aparmışdıq. Araşdırma nəticəsində ölkənin əmtəə bazarında külli miqdarda qaçaq və mənşəyi məlum olmayan parfümeriya məhsullarının olduğu müəyyən edilmişdi. Bununla bağlı müvafiq dövlət qurumları qarşısında məsələ qaldırılmış, satış şəbəkələri müəyyən addımlar atılmışdı. Lakin zamanla bazar yenidən çirklənməyə başladı. Hazırda nəinki qramla ətir satanlar, hətta bəzi brend mağazalarla bağlı da istehlakçı şikayətləri mövcuddur".

## "BU SAHƏYƏ FAKTİKİ OLARAQ NƏZARƏT EDƏN QURUM YOXDUR"

Birlik sədri bildirir ki, Nazirlər Kabinetinin 114 saylı qərarına əsasən, parfümeriya məhsulları dəyişdirilməsi və qaytarılması mümkün olmayan mallar siyahısına daxildir. Bəzi biznes subyektləri bu normadan sui-istifadə edirlər: "Bazarın çirklənməsi fonunda qramla ətir satışı da artıb. Brend ətirlərə inamın azalması nəticəsində istehlakçılar qramla satılan məhsullara üstünlük verirlər. Bu sahəyə isə faktiki olaraq nəzarət edən qurum yoxdur. Nazirlər Kabinetinin təhlükəsizliyi təmin olunan mallarla bağlı 343 saylı qərarı artıq 10 ildən çoxdur ki, ləğv edilib. Hazırda parfümeriya məhsullarının tərkibinə nəzarət əsasən gömrükdə sənədlər üzərində aparılır və məhsullar bu şəkildə ölkənin əmtəə bazarına buraxılır. Açıq şəkildə satılan və nəzarətsiz dövriyyədə olan ətirlərin insanların sağlamlığına mənfi təsir göstərdiyi istisna olunmur. Çünki bu məhsullar birbaşa dəri ilə təmasda olur və potensial təhlükə daşıyır. İnsanlar bunu bilmədən müxtəlif sağlamlıq problemləri ilə üzləşə bilərlər".



Eyyub Hüseynov

# ÜRƏYİN SIĞINACAQ TAPDIĞI YER



**Portofino elit turizm şəhəridir. Məşhur siyasətçilər, idman ulduzları, şou-biznes, moda simaları hər il buraya axın edirlər. Təsadüfi deyil ki, şəhər Madonna, Corc Kluni, Şeron Stoun və Demi Mur kimi tanınmışların tətil yeridir.**











TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Portofino kiçik bir şimali İtaliya şəhəridir. Cəmi 508 nəfər əhalisi olan bu elit turizm şəhəri təkcə turistlər üçün deyil, həm də italyanlar üçün sevimli yerdir. Məşhur italyan filmlərinin bir çox səhnələri burada çəkilib. Portofino sanki birbaşa italyan rəsmindən götürülmüş kimi, Aralıq dənizi təbiətinin, rəngarəng evlərin və mavi suların mənzərəli simbiozudur. Bu kiçik şəhərə səyahət turistlər və qonaqlar üçün sevinc fırtınası yaradır. Portofino insanlar üçün təkcə bir şəhər adı deyil - nostalgiya, sevgi və xatirə deməkdir. Məşhur italyan tenoru Andrea Bocellinin oxuduğu kimi: Portofino - ürəyin sığınacaq tapdığı yer...

### BALIQÇI QƏSƏBƏSİNDƏN KURORT ŞƏHƏRİNƏ

Portofinoya səyahət etməzdən öncə şəhər və ətraf bölgə haqqında xeyli araşdırmalar etdim. Öyrəndim ki, Portofino 19-cu əsrin sonlarında kurort kimi məşhurlaşıb. Əvvəllər isə sakinləri əsasən balıqçılıqla dolanışığını təmin edən bir balıqçı qəsəbəsi olub.

Hazırda Portofino Liquriyadakı ən bahalı şəhərlərdən biridir. Qeyri-rəsmi olaraq cazibədar paytaxt statusu qazanıb. Şəhər bölgədə həm də ən gözəl liman kimi tanınır. Adının mənası da son liman deməkdir. Bütün çimərlikləri büllur kimi təmiz sularına görə "mavi bayrağa" layiq görülüb. Şəhər müxtəlif rəngarəng balıqların, eləcə də delfinlərin geniş çeşidi ilə öyünür. Roma dövründə balıqçılar və dənizçilər sularında çoxlu delfin olduğuna görə qəsəbəyə "Delfin körfəzi" adı veriblər. Əlverişli yerləşməsinə görə körfəzdə hətta fırtına zamanı belə lövbər salmaq olur.

Müxtəlif dövrlərdə bu körfəzdə Ziqmund Freyd, Ernest Heminquey, Gi de Mopassan kimi məşhurlar yaşayıb. Hazırda isə Madonna, Corc Kluni, Şeron Stoun və Demi Mur kimi tanınmışların tətil yeridir. Məşhur siyasətçilər, idman ulduzları, şou-biznes, moda simaları hər il buraya axın edirlər. Turistlər indi sahili seyr edə-edə Himprey Boqart və Marçello Mastroianninin bir vaxtlar məhkəmə iclaslarının keçirildiyi masalarda kofe, qırmızı və ağ italyan şərabları içirlər...

### HƏR PƏNCƏRƏ ƏN AZI BİR MİLYON DOLLARA

Portofino 1935-ci ildən bəri dövlət mühafizəsi altında olan Milli Parkın ərazisində yerləşir. Bu statusun sahil xəttinin bu hissəsinə verilməsinin səbəbi əbəs deyil. Yerli təbiət həqiqətən unikaldır: burada çoxsaylı nadir bitkilər bitir, fauna da az zəngin deyil.

Yerli sakinlər zarafatla deyirlər ki, evlərdəki hər pəncərə ən azı bir milyon dollara başa gəlir. Fakt budur ki, yalnız varlılar Portofinoda uzun müddətli tətilə çıxa bilərlər. Zəngin yerli italyanlar da bu kurort şəhərinə üstünlük verirlər. İtalyanlar özləri Portofinonu "cənnət guşəsi" adlandırırlar, xüsusən də təəccüblü dərəcədə mülayim iqliminə görə. Portofino bir çox italyan tərəfindən əsasən lüks və sərvətin təcəssümü olan bir şəhər kimi tanınır. Burada evlərin qiyməti 5-7 milyon avrodan başlayır.

Şəhərdə Hollivud ulduzları və digər məşhurlarla bağlı bir çox hekayə var. Məsələn, "İstedadlı cənab Ripley" filmi burada çəkilib. Bundan əlavə, Lana Del Rey 2014-cü ildə Portofinoda "Aşırı şiddət" ("Ultraviolence") mahnısına klip çəkdirib.

1958-ci ildə "Portofinoda sevgi" mahnısı Fred Buscaglione tərəfindən ifa edildikdən sonra qəsəbənin adı xeyli məşhurlaşıb. Mahnı italyan ruhunun gözəl bir simvoluna çevrilib. Növbəti il italyan-fransız müğənnisi Dalida tərəfindən oxunan mahnı Avropa bazarında ciddi uğur qazanıb. Müğənninin 1950-ci illərin əvvəllərindəki repertuarının şah əsəri hesab edilən mahnı, sonda səhnələşdirildiyi Portofinonun simvolik himninə çevrilib.

Portofinonun simvoluna çevrilən bu mahnı indi də məşhur italyan tenoru Andrea Bocellinin ifasında qəlbləri titrədir. "Youtube" platformasında izlənmə rekordu qıran mahnı şəhərin əsas meydanı Piazzettada oxunanda yerli italyanlar evlərinin pəncərəsindən qulaq asır. Bu meydan özü də Portofinonun qeyri-rəsmi simvoluna çevrilib. Burada avtomobillərin hərəkəti qadağandır, buna görə də turistlər rahat gəzə, şəkil çəkə, dənizdən zövq ala, dəbdəbəli yaxtaları, qayıqları seyr edə bilirlər. Meydanın özündə gözəl otellər, mağazalar və dəniz məhsulları təqdim edilən restoranlar var.




### "QIŞDA SAKİTLİYİ SEVƏNLƏR ÜÇÜN TƏTİL YERİNƏ ÇEVRİLİR"

"Portofino yaz və yay aylarında turistlər üçün daha qaynar yerdir", - deyə sakinlərdən biri danışır: "Yayda burada açıq havada konsertlər keçirilir. Dünyanın məşhur insanlarına tez-tez bu sahillərdə rast gələ bilərsiniz. Noyabrdan başlayaraq aprelə qədər buralarda sakitlikdir. Turistlər az gəlir. Yalnız həftə sonları dincəlməyə gələnlər olur. Yağıntılar az qeydə alınır. Portofino qışda daha çox sakitliyi sevənlər üçün tətil yerinə çevrilir".

Digər yaşlı sakinlərdən biri də əlavə edir: "Portofino tamamilə turistlər və elit təbəqə hesabına yaşayan bahalı bir şəhərdir. Burada hər şey sözün əsl mənasında onların diqtəsinə tabedir. Yerli sakinlərin rahatlığı hotel və restoran sahibləri üçün az maraq doğurur. Ona görə də onsuz da az olan yerli əhalinin burada hər il azalması təəccüblü deyil. Onların yerini zəngin insanlar tutur".

Meydandakı hotellər köhnə kimi görünürlər. Lakin əslində, əksəriyyəti ötən əsrdə tikilib. Sahil boyu sıralanan restoranların çoxu yayın gəlişini gözləyir. Restoranlardan ətrafa yayılan həzin italyan mahnıları ruhu dincəldir.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
21 FEVRAL ŞƏNBƏ 2026
www.kaspi.az

“Barselona” son həftələrdə özünə oxşamır. Çempionatda liderlik “Real Madrid”ə təhvil verilib, kubok perspektivi də möcüzəyə bağlıdır.

# GÖZLƏNİLMƏZ ÇÖKÜŞÜN PƏRDƏARXASI



Cəmi bir ay əvvəl hər şey başqa cür görünürdü. “Barselona” oyunlarında tempi diktə edir, nəzarəti əlində saxlayır, nəticələri göz oxşayırdı. İndi isə tablo fərqlidir: əvvəlcə çempionatda “Real Sosyedad” səfərində məğlubiyyət, ardından İspaniya Kubokunda “Atletiko Madrid” qarşısında 0:4-lük ağır zərbə, son olaraq isə “Jirona” yenilgisi ilə La Liqada liderlik “Real Madrid”ə təhvil verildi. Beləliklə, artıq mənzərə tamamilə dəyişib. Kataloniya təmsilçisinin kubok perspektivi möcüzəyə bağlıdırsa, çempionatda da işlərin yolunda getmədiyini deməyə əsas var.

**EFFEKTİVLİYİN YOXA ÇIXMASI**

Statistikaya baxanda “Barselona”nın oyunu çökmüş kimi görünmür. Topa nəzarət, epizodlar var, gözlənilən qol göstəricisi çox vaxt rəqibdən yüksəkdir. Lakin bu, nəticəyə sirayət etmir. “Barselona” dominantlığını saxlasa da, nəticə üçün ən əhəmiyyətli məqam hesab edilən effektivlikdə axsamağa başlayıb. “Jirona” ilə oyunda da bu, açıq göründü. Oyunun əvvəlində çoxsaylı şanslar, penalti epizodu, sürətli hücumlar bir-birini əvəzləsə də, bitirici toxunuş çatmadı.

“Barsa” tarixən oyunu yarımmüdafiədəki üstünlüyü ilə qazanıb. Komandanın orta xətti, adətən, oyunun gedişinə istiqamət verməyi bacarıb. Amma son oyunlarda bu mexanizm işləmir. Məsələ ondadır ki, yarımmüdafiədə dinamika yoxdur. Ötürmələr daha çox yanlara doğrudur, bu isə kəskinliyi azaldır. Sıx və nizamlı müdafiə olunan rəqiblər bu aşağı tempə qarşı lazımi həll yollarını tapmağı bacarırlar.

## Ən böyük problem müdafiəyə keçiddədir

“Barselona” Hansi Flikin rəhbərliyi altında müdafiə xəttinin qurulması ilə bağlı yeniliklər təklif edir. Bunlardan başlıcası arxa xətt oyunçularının çox öndə qərarlaşmasıdır. Xüsusilə ötən mövsüm bu taktika işləyirdi. Hazırkı çempionatın da qışa qədər olan hissəsində “Barsa” müdafiədə ciddi çətinliklərlə üzləşmirdi. Lakin get-gedə rəqiblərin bu taktikaya “antivirus” tapması ilə vəziyyət dəyişib. Son zamanlar “Barselona” rəqiblərinə həddən artıq çox epizod verir. Komandanın ən böyük problemi müdafiəyə keçid mərhələsindədir. Top itirilən anda struktur pozulur. Orta xətlə müdafiə arasında məsafə böyüyür. Rəqib əks-hücum üçün koridor tapır. Xüsusilə, “Atletiko Madrid”ə qarşı oyunda problem qabarıq hiss olunurdu. 0:4 hesabı təsadüf deyildi. Müdafiə-hücum balansının pozulması, gecikmiş reaksiya ssenarisi yekunda acınacaqlı məğlubiyyətə səbəb oldu. Müasir futbolda keçid oyunu əsasdır. “Barselona” topa sahib olanda hər nə qədər estetik görünsə də, topsuz qalanda bir o qədər kövrəkdir.

**LAPORTA POSTUNDA QALACAQ?**

Meydanda baş verənlərlə yanaşı, klubun rəhbərliyində də müəyyən dəyişikliklər yaşanıb. Katalonların prezidenti Joan Laporta bir müddət əvvəl postundan istefa verdi. Bu, klubun Nizamnaməsinə görə gələcək prezident seçkilərində yenidən iştirak etmək üçün prosedurdur. O, bu məqamda müvəqqəti rəhbərlik rolunu klubun vitse-prezidenti Rafa Yusteyə həvalə edib və martın 15-i üçün prezident seçkiləri artıq rəsmiləşib. Bu qərar yalnız formaldır - ancaq faktiki olaraq klubun nəzarəti müvəqqəti idarə heyətinə keçib və Laporta idarəçilikdə birbaşa iştirak etmir. Aydın məsələdir ki, bu proses komandanın əhval-ruhiyyəsinə təsir göstərə bilər.

## Flikin qalmaq üçün şərti var

Baş məşqçi Hansi Flikin “Barselona” ilə 2027-ci ilin yayına qədər qüvvədə olan müqaviləsi var. Klub rəhbərliyi sözləşməni artırmaq niyyətindədir. Lakin almaniyalı çalışdırıcı uzunmüddətli müqavilələrə üstünlük vermədiyini və mövsümün sonuna qədər gələcəyə dair bütün müzakirələri təxirə salmaq istədiyini bildirib. Ən maraqlı məqam budur ki, Flik özünü Laporta layihəsinin bir hissəsi olaraq görür. O, klubda qalmaq niyyətindədir. Lakin şərti var: Laporta yenidən prezident seçilməlidir. Başqa bir namizəd qalib gələrsə, Flik klubdan ayrılmağı düşünə bilər.



## Katalonlar çalxantılı dövrdən keçirlər

Ümumilikdə, həm meydanda, həm klub ətrafında kifayət qədər ciddi hadisələr baş verir və katalonlar çalxantılı dövrdən keçirlər. “Barselona”nın liderliyi “Real Madrid”ə verməsi sadəcə uzun marafonda psixoloji üstünlüyün əldən çıxmasıdır. Çempionluq yarışında təqibedən olmaq başqa, təqibolunan olmaq başqa məsuliyyətdir. İndi təzyiq ikiqatdır, komanda həm xal qazanmaq, həm də özünə inamı bərpa etmək barədə düşünməlidir.



Hələlik enişi böhran hesab etmək olmaz. Çünki mövsümün sonuna kifayət qədər vaxt var, vəziyyəti dəyişmək mümkünsüz deyil. Qarşıda iki mümkün ssenari var: ya komandada bu məğlubiyyətlər keçid mərhələsi kimi sistemin yenidən dirçəlməsinə səbəb olacaq, ya da klubda psixoloji dalğalanma olacaq.